


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 80 (24.217)

6 may 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


# Böyük Qayıdış: siyasi iradə və qətiyyətin təzahürü

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Füzuli rayonlarında səfərdə olublar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Xocavənd rayonuna səfər ediblər.

Dövlətimizin başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verildi.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirdi ki, Agentlik Tuğda təqdim etdiyi turizm konseptual yanaşma çərçivəsində üç istiqamətdə – tarixi-memarlıq üslubunu qorumaqla mədəni turizmin inkişaf etdirilməsi, təbiət resurslarından səmərəli istifadə edib, ekoturizm və "yaşıl destinasiya" konseptində turizm sənayesinin inkişaf etdirilməsi və aqroturizm resurslarından istifadə etməklə dayanıqlı və icma əsaslı turizm inkişaf konsepsiyası üzrə layihələrin həyata keçirilməsini planlaşdırır.

Qeyd olundu ki, ilk mərhələdə Tuğ kəndində keçmiş məktəb binası olmuş yaşayış korpusunun konservasiyası nəzərdə tutulur. Kəndin tarixi memarlığı dərindən öyrənildikdən və kifayət qədər yerli memarlıq üslubunda elmi-tədqiqat və elmi təhlillər, praktiki təcrübə qazanıldıqdan sonra bu abidənin bərpası layihəsi həyata keçirilə bilər. Çünki Tuğda ənənəvi Azərbaycan memarlığına işğal dövründə çox müdaxilə edilib və bəzi tikililər açıq-aşkar vandalizmə məruz qalıb. Buna görə də ilkin olaraq ümumi sahəsi 1464 kvadratmetr olan tikililərin konservasiyası və konsolidasiyası işləri ilə yanaşı, 6515 kvadratmetrlik ətraf ərazisinin abadlaşdırılması nəzərdə tutulur. Bundan başqa, kəndin mərkəzi hissəsində yerləşən, ümumi sahəsi 450 kvadratmetr olan mövcud tarixi tikililərin bərpa edilərək Turizm İnformasiya Mərkəzi və şərab dequstasiya yeri kimi istifadə edilməsi nəzərdə tutulur. Tuğ kəndinə gələcəkdə turist axını ilə əlaqədar burada keyfiyyətli xidmətlərin göstərildiyi iaşə obyektinin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, tarixən şərabçılıq destinasiyası kimi tanınan Tuğ kəndi Xocavənd və Füzuli rayonlarının üzüm sahələrindən toplanan məhsuldan alınan şərabları ilə məşhur olub. Şərab zavodunun ümumi sahəsi 1300 kvadratmetrdir və onun ətrafındakı 850 kvadratmetrlik sahənin abadlaşdırılması nəzərdə tutulur. Zavod üçün müasir turizm konsepti tətbiq ediləcək. Belə ki, bura yalnız şərab istehsal edilən yer deyil, həmçinin Tuğ bölgəsində tarixən mövcud olmuş şərabçılıq ənənəsinin təbliğ olunduğu məkana çevriləcək. Kompleksin tərkibində müxtəlif tədbir və festivalların keçirilməsi üçün çoxtəyinatlı məkanlar olacaq.

Diqqətə çatdırıldı ki, Kulinariya Təlim Mərkəzi təkcə Qarabağın deyil, bütün Azərbaycan mətbəxinin turistlərə təbliğ və eksperimental kulinariya metodlarının tətbiq edildiyi məkanlardan biri olacaq. Tikilinin tərkibində qruplar və heyətlər üçün mətbəx, qəbul, dequstasiya otaqları nəzərdə tutulur.

Həmçinin Tuğ kəndinin Şuşa yolu üzərində vacib turizm destinasiyası olması faktı nəzərə alınaraq burada avtomobil dayanacağı da yaradılacaq.

Bildirildi ki, Tuğ kəndində tarixi tikililər, küçələr, hasar və darvazalar ənənəvi memarlıq üslubunda bərpa və konservasiya olunacaq. Görüləcək işlərin planına, həmçinin Tuğ ərazisində mövcud tarixi bulaqların bərpası, küçə boyunca hasar və tikililərin təmiri də daxildir.

Qeyd olundu ki, gələcəkdə Tuğ kəndində turizm infrastrukturunun inkişafından və yerli icmanın kəndə qayıtmasından sonra bir sıra fəal turizm məhsullarının inkişaf etdirilməsi planlaşdırılır. Tuğ kəndinin Hadrut qəsəbəsinin və Füzuli şəhərinin yaxınlığında yerləşməsi, Şuşaya gedən yolun buradan keçməsi amilləri nəzərə alınaraq, gələcəkdə ətrafdakı tarix və mədəniyyət abidələrinə hayking və piyada turizm marşrutlarının yaradılması, piyada gəzintisi üçün dağ cığırlarının keçdiyi yerlərdə kempinq zonaların, kiçik etnoqrafik festivalların, günlük turist səfərlərinin təşkili və digər layihələrin həyata keçirilməsi üçün böyük potensial var.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Tuğ kəndində İnzibati Mərkəzin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma ilkin mərhələdə Tuğ kəndinin ictimai-inzibati mərkəzində inşası planlaşdırılan binalar barədə məlumat verdi.

Bildirildi ki, kənddə 1,63 hektar sahəni əhatə edəcək inzibati zonada ikimərtəbəli inzibati bina, klub icma və mədəniyyət mərkəzləri, restoran tikiləcək. Burada tikiləcək və bərpa ediləcək binaların ümumi sahəsi 3200 kvadratmetr olacaq.

Ərazidə genişmiqyaslı abadlıq işlərinin görülməsi, yerüstü parkinq sahəsinin yaradılması nəzərdə tutulub. Bu ərazilərə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. İnzibati mərkəzdə tikinti-bərpa işlərinin gələn ilin martında başa çatdırılması nəzərdə tutulur.

Dövlətimizin başçısı İnzibati Mərkəzin təməlini qoydu.

Mayın 5-də Xocavənd rayonunun Tuğ kəndində ilk yaşayış məhəlləsinin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məhəllənin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 99 hektara yaxın olan ilk yaşayış məhəlləsi Tuğ kəndinin təsdiq edilmiş Baş planına uyğun qaydada salınacaq. 1089 nəfərin yaşaması üçün nəzərdə tutulan məhəllədə birinci mərhələdə 24 tarixi fərdi ev bərpa ediləcək, 95 ev isə yenidən tikiləcək. Növbəti mərhələlərdə isə məhəllədə 244 yeni fərdi evin tikilməsi nəzərdə tutulur.

Məhəllədə 360 yerlik məktəb binası, 50 yerlik uşaq bağçası, ticarət mərkəzləri, məscid, kilsə, tibb məntəqəsi, aptek, idman sağlamlıq sahəsi, tərəvəz və meyvə anbarı da olacaq. Ümumiyyətlə, yaşayış məhəlləsində əhalinin məşğulluğu üçün hər cür şərait təmin ediləcək.



Diqqətə çatdırıldı ki, Tuğ kəndində bir sıra binaların – inzibati bina, klub-icma mərkəzi, məktəb, bağça və 15 fərdi evin tikinti-bərpa işlərinin 2024-cü ilin martında tamamlanması planlaşdırılır.

Dövlətimizin başçısı Tuğ kəndində ilk yaşayış məhəlləsinin təməlini qoydu.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsində 360 şagird yerlik tam orta məktəbin bərpa layihəsi ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verildi.

Bildirildi ki, bərpa olunacaq məktəb 1,9 hektar ərazidə yerləşir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra məktəbdə 15 sinif otağı, idman və akt zalları, yeməkxana, kitabxana, hərbi dərs otağı, 3 laboratoriya və 2 texnologiya otağı, informatika otağı olacaq. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları müasir avadanlıq və ləvazimatlarla təchiz ediləcək.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunmuş rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə dağıdılan təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Hadrutda məktəb binasının tikintisi də bu işlərin tərkib hissəsidir.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsində salınacaq ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Qeyd edildi ki, ilk yaşayış məhəlləsi 28 fərdi evdən ibarət olacaq. Tikiləcək evlərin ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olması nəzərdə tutulur. Mənzillərin sahəsi 70-120 kvadratmetr təşkil edəcək.

Bildirildi ki, Hadrut qəsəbəsində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir.

Dövlətimizin başçısı Hadrut qəsəbəsində ilk yaşayış məhəlləsinin təməlini qoydu.

Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdıran tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq" ifadəsi Hadrut rayonunda ilk yaşayış məhəlləsinin təməlinin qoyulması ilə bir daha təsdiqini tapır. Otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan hadrutlular üçün ilk yaşayış məhəlləsinin təməlinin qoyulması onları bu arzularına daha da yaxınlaşdırır.

Mayın 5-də Hadrut qəsəbəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Hadrut qəsəbəsinin turizm inkişaf konsepsiyası barədə məlumat verilib.

Dövlətimizin başçısına və birinci xanıma Hadrutda turizmin inkişaf etdirilməsi üçün Dövlət Turizm Agentliyi tərəfindən, ilk növbədə, qəsəbənin tarixi hissəsində mərkəzi məhəllənin bərpasının və abadlaşdırılmasının nəzərdə tutulduğu bildirildi.

Qeyd olundu ki, Hadrutun tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Məhz bu hissədə bərpa və konservasiya işləri gələcəkdə Hadrutda aparılacaq tarixi tikililərin bərpa işləri üçün ilkin təcrübə olacaq və digər işlər bu təcrübəyə əsaslanaraq aparılacaq.

Məlumat verildi ki, bu xristian məbədi Hadrutun tarixi hissəsinin əsas memarlıq abidəsidir. Qafqaz Albaniyası dövründə həmin məbəd müxtəlif dövrlərdə bir neçə dəfə bərpa edilib. Məbəd sonuncu dəfə 1621-ci ildə bərpa olunub. Bu məbədin divarlarında daha qədim dövrdə tikilmiş abidənin daşlarından istifadə edilib. Buna görə də Qafqaz Albaniyası dövrünə aid məbəd və onun ətrafında Dövlət Turizm Agentliyi tərəfindən bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada

Ardı 2-ci səhifədə



elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur. Çünki işğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib.

Yerli əhəmiyyətli memarlıq abidəsi kimi rəsmi olaraq dövlət mühafizəsinə götürülən məbəd kompleksinin ərazisində onlarla qəbirdaşı yerləşir. Bununla əlaqədar ərazinin arxeoloji cəhətdən tədqiq edilməsinə ehtiyac yaranıb.

Azərbaycan Prezidentinə və birinci xanıma Turizm Məlumat Mərkəzi barədə də məlumat verildi.

Qeyd olundu ki, Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün bərpa ediləcək Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi nəzərdə tutulur. Mərkəzdə Hadruta gələn ilk turist qruplarına qəsəbə və ətraf kəndlərdəki turizm obyektləri haqqında məlumat veriləcək. Turizm Məlumat Mərkəzi iki hissədən ibarət olacaq. Birinci hissə turistlərin qəbulu sahəsi, ikinci hissə isə turizm işçiləri üçün ofis kimi nəzərdə tutulur.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Hadrut qəsəbəsində inzibati mərkəzin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verildi.

Bildirildi ki, inzibati zonanın ümumi sahəsi 4,2 hektardır. Buraya inzibati bina, bələdiyyə binası, mədəniyyət mərkəzi və infrastruktur qurumlarının ofislərinin binaları daxildir.

Qəsəbənin inzibati ərazisinə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. Yol və kommunikasiya xətlərinin ümumi uzunluğu 1100 metr olacaq. Hadrut qəsəbəsinin inzibati ərazisinin tikintisinin 2024-cü ilin martında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Hadrut qəsəbəsində inzibati mərkəzin təməlini qoydu.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Yolun hərəkət hissəsinin eni 14,5 metr, torpaq yatağının eni isə 21,5 metrdir.

Dövlətimizin başçısının tapşırığına əsasən, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolun üzərindəki 6 körpünün tikintisi başa çatıb. Yol boyunca 18 avtobus dayanacağı quraşdırılıb.

Yeni avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

Qeyd edək ki, bu yol Azərbaycan Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamına əsasən inşa olunur.

Mayın 5-də “Hadrut” qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, yeni inşa edilən “Hadrut” qovşaq yarımstansiyasının təməli 2021-ci il oktyabrın 9-da Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bildirildi ki, “Şükürbəyli”, “Hadrut” və “Şuşa” yarımstansiyaları arasında yaradılan 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olan 35/0,4 kV-luq 2x1600 kVA gücündə yeni “Hadrut” qovşaq yarımstansiyası Hadrut qəsəbəsində qurulacaq müxtəlif təyinatlı infrastrukturun elektrik enerjisinə tələbatını ödəyəcək. Həmçinin yeni qovşaq yarımstansiyası Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərin elektrik təchizatının etibarlılığını və dayanıqlılığını təmin edəcək.

Yarımstansiyada Rəqəmsal Elektrik Şəbəkələrinin İdarəolunması Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına zəmin yaradacaq. Zərurət yaranarsa, “Hadrut” qovşaq yarımstansiyası vasitəsilə Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını da elektrik enerjisi ilə təchiz etmək mümkün olacaq.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Qeyd olundu ki, Təlim-Tədris Kompleksində Beynəlxalq tədbirlərin keçirilməsi üçün bütün zəruri şərait nəzərə alınıb.

Kompleksin Regional Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpa olunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. Mərkəz təlim-tədris zalından və təlim poliqonundan ibarətdir. Tədris zalı 35/0,4 kV-luq müasir şəbəkə modelinin, 35 və 0,4 kV-luq fiberoptik kabellərin, kompozit şüşə-lifli dayaqların tətbiq sahələri, perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə təqdim edilməsi üçün nəzərdə tutulub. Burada, həmçinin xüsusi dayaqlarda şəbəkədə istifadə edilən element və ləvazimatlar qurulub.

İşğaldan azad edilmiş ərazilərdə Yaşıl enerji mənbələrinin (işlək günəş və külək enerji qurğuları) tətbiqinə dair real işlək model də tərtib edilib, həm personalın, həm də gələcəkdə fəal istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub. Eyni zamanda Elektroenergetika sahəsində əldə edilmiş tarixi nailiyyətləri əks etdirən elektron guşə və əyani vəsait stendləri, müasir uçot cihazları (SMS, Smart, NFC sayğacları) və müasir təhlükəsizlik texnikası, idarəetmə plakatları təqdim edilir.

Məlumat verildi ki, beynəlxalq tədbirlər poliqonu isə peşə ustalığı yarışları və müasir texnologiyaların əyani nümayişi üçün nəzərdə tutulmuş texnoloji ərazidir. Eyni zamanda poliqonda Günəş və külək enerjisi qurğularının quraşdırılması, istismarı və müasir idarəetmə sistemləri üçün BOEM-təlim sahəsi planlaşdırılıb. Təlim poliqonunda real iş şəraitində istifadə edilən müasir şəbəkə modeli, Yaşıl enerji elementləri (Günəş və külək enerji mənbələri) və innovativ layihə maketlərinin yerləşdirilməsi nəzərdə tutulub. Poliqon beynəlxalq peşə ustalığı yarışlarının, elektrotexniki təlim tədbirlərinin keçirilməsi və müxtəlif istiqamətlər üzrə təcrübə mübadiləsinin əyani nümayiş etdirilməsi üçün də geniş imkanlar yaradacaq.

Burada yaradılan Regional Logistika Mərkəzi isə region üzrə tələb olunan nəqliyyat, xüsusi texnika və mal-materialın nəqli, təmiri və saxlanması üçün nəzərdə tutulub. Məqsəd, tələb olunan texniki vasitələrin vaxt itkisi olmadan əraziyə çatdırılması və saz vəziyyətdə saxlanmasından ibarətdir.

Transformator xidmət sahəsində müasir paylayıcı şəbəkələrdə tətbiq edilən güc transformatorlarının təmiri, sazlanması və müasir cihazlarla təchiz edilməsi həyata keçiriləcək.

Mərkəzi Laboratoriya smart sayğaclar, kabel, izolyator, qurğu və avadanlıqların test-sınaq-diaqnostika tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulub.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Pirəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 178 hektardır. Kənddə 2 min 369 nəfərin köçürülməsi planlaşdırılıb. Burada, ümumilikdə, 565 fərdi ev tikiləcək və hər bir evin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq məhəllələrin salınmasının birinci mərhələsi üçün 70,3 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 280 fərdi evin tikilməsi nəzərdə tutulur.

Kənddə çoxfunksiyalı inzibati binanın, mehmanxana və kafe-restoranın, məscid və mərasim evinin, yanacaqdoldurma məntəqəsinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 480 yerlik orta məktəbin, 80 yerlik 2 uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, bazarın, rabitə qovşağının tikintisi planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Pirəhmədli kəndinin təməlini qoydu.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli-Hadrut avtomobil yolunun açılışında iştirak edib.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Ümumi uzunluğu 12,3 km olan yol birinci texniki dərəcəlidir. Bu yol başlanğıcını “Zəfər yolu”ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir.

Layihəyə əsasən yolun 6,7 kilometrliyində “Qarğabazarı” adlanan ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunun Dədəli kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

Dövlətimizin başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, kəndin layihələndirilən ümumi ərazisi 314 hektardır. Bu kənddə 4495 nəfərin (1129 ailə) məskunlaşması nəzərdə tutulub. Tikiləcək 1050 fərdi evin hər birinin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Qeyd edildi ki, birinci mərhələdə Dədəli kəndində 1373 nəfərin yaşayacağı 327 fərdi ev tikiləcək.

Kənddə çoxfunksiyalı inzibati bina, məscid və mərasim evi, yanacaqdoldurma məntəqəsi, aptek, idman klubu, tibb mərkəzi, 840 yerlik orta məktəb, 100 yerlik iki uşaq bağçası, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi və kitabxana, ticarət obyektləri, bazar fəaliyyət göstərəcək.

Məlumat verildi ki, Dədəli kəndi də tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət məqsədilə bu kənddə də alternativ enerjidən istifadə, istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. Kənddə tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Dədəli kəndinin təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən Füzuli yaşayış kompleksində görülən inşaat işlərinin gedişi ilə tanış olublar.



Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına və birinci xanıma tikinti işlərinin gedişi barədə məlumat verdi.

Qeyd olundu ki, ümumi sahəsi 8,9 hektar olan yaşayış kompleksi 38 binadan ibarətdir. Dördmərtəbəli, beşmərtəbəli, altımərtəbəli və yeddimərtəbəli binalarda, ümumilikdə, 846 mənzil olacaq. Onların 318-nin ikiotaqlı, 430-nun üçotaqlı, 98-nin isə dördotaqlı olması nəzərdə tutulur. İkiotaqlı mənzillərin sahəsi 54-68 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 71-109 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 92-108 kvadratmetr təşkil edəcək.

Hazırda kompleksin inşası sürətlə və keyfiyyətlə davam etdirilir. Tikinti işlərinin 2023-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Kompleksdə bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz pilətəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Bütün binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin ediləcək.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma şəbəkə barədə məlumat verildi.

Bildirildi ki, şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub. İlkin mərhələdə 18,5 kilometr yolun tikintisi planlaşdırılır. Birinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 44, ikinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 34, ümumşəhər əhəmiyyətli küçə və yolların eni 24, yerli əhəmiyyətli küçə və yolların eni isə 20 metr olacaq.

Şəhərdaxili yollarda piyadaların rahat hərəkətini təmin etmək üçün piyada yolları, ətraf mühitə dəyən zərəri azaltmaq üçün yaşıllıq zolaqları, sağlamlığa faydalı vərdişləri artırmaq üçün velosiped yolları, ictimai nəqliyyat üçün xüsusi hərəkət zolaqları yaradılacaq. Prospektlərin dördzolaqlı, küçə və yolların isə ikizolaqlı olacağı planlaşdırılır.

Füzuli şəhərində daxili yol-küçə şəbəkəsi və kommunikasiya xətlərinin layihəsi

Ardı 3-cü səhifədə

vahid işçi qrupu tərəfindən bütün qurumların rəyi alınmaqla hazırlanıb. Şəhərdaxili yollar inşa olunarkən piyada səkilərinin altından keçəcək elektrik, qaz, su, rabitə, kanalizasiya və yağış sularının axıdılması xətləri ilə birlikdə həyata keçiriləcək. Bu isə həm vaxta, dövlət vəsaitinin qənaətinə, işlərin optimallaşdırılmasına və yüksək səviyyədə əlaqələndirilməsinə imkan yaradacaq, habelə kommunikasiya şəbəkələrinin paralel çəkilməsi zamanı yarana biləcək problemlərin aradan qaldırılmasına imkan verəcək.



Prezident İlham Əliyev Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlini qoydu.

Sonra dövlətimizin başçısına və birinci xanıma Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikintisi barədə də məlumat verildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Ölkənin elektroenergetika sektorunda texnoloji innovasiyaların tətbiqi və infrastrukturun rəqəmsal transformasiyasının sürətləndirilməsi istiqamətində inşa edilən Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin təməli 2021-ci il oktyabrın 17-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bildirildi ki, Mərkəzin elektrik təchizatı üçün 110/35/10 kV-luq "Füzuli" yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib. Mərkəzin birinci mərtəbəsində birinin gücü 2500 kVA olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə rəqəmsal idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Prezident İlham Əliyev Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzini işə saldı.

Qeyd olundu ki, rəqəmsal şəbəkələrin təməl elementi olan Rəqəmsal Yarımstansiya elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini, vahidliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Rəqəmsal yarımstansiyadan qidalanan istehlakçılar elektrik enerjisi verilişində fasilələrin yaranması barədə məlumatları onlayn qaydada əvvəlcədən ala bilirlər. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası prosesi rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə əlaqələndirilməsini tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma inşaat işlərinin gedişi barədə məlumat verildi.



Bildirildi ki, ötən il başlanılan tikinti işlərinin bu ilin dekabrında başa çatdırılması planlaşdırılır. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılacaq. Məktəbin ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa ediləcək. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilir.



Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoyub.

Dövlətimizin başçısına layihə haqqında məlumat verildi.

Bildirildi ki, layihə 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində 15 subartezian quyusunun qazılması, uzunluğu 10,7 kilometr olan magistral su kəmərinin, tullantı sutəmizləyici qurğunun inşası, eyni zamanda ümumi uzunluğu 103 kilometr olan su şəbəkəsinin qurulması və digər işlərin görülməsi nəzərdə tutulur.

Birinci mərhələdə 17 min kubmetr tutumu olan su anbarının inşası planlaşdırılıb. Bu anbar şəhər əhalisinin təxminən 80 faizini içməli su ilə təmin edəcək. İkinci mərhələdə isə Füzuli şəhərinin əhalisinin qalan 20 faizinə xidmət göstərən, tutumu 5 min kubmetr olan su anbarı inşa ediləcək.

Dövlətimizin başçısı kompleksin təməlini qoydu.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan televiziyasına müsahibə verib

*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirliyə müsahibə verib.*

Həmin müsahibəni "Şərq qapısı" qəzetinin çoxsaylı oxucularına da təqdim edirik.

***– Salam, Fuad müəllim, xoş gördük! Gərgin iş qrafikinizə baxmayaraq, xahişimizi diqqətə alıb bizə zaman ayırdığınıza görə sizə minnətdarlığımızı bildiririk...***

– Təşəkkür edirəm, mən də sizə və kollektivinizə uğurlar arzulayıram...

***– Biz həm də əlamətdar bir ildə – "Heydər Əliyev İli"ndə görüşürük... Məlumdur ki, cənab Prezidentimizin müvafiq Sərəncamı ilə müstəqil Azərbaycanın qurucusu və memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi təntənəli tədbirlərlə qeyd olunur. Heydər Əliyev Azərbaycana rəhbərliyinin istər birinci, istərsə də ikinci dövründə xalqımızın rifahı və ölkəmizin inkişafı naminə müstəsna xidmətlər göstərmiş dahi şəxsiyyətdir...***

– 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması və Tədbirlər Planının təsdiq edilməsi görkəmli şəxsiyyətin ömür yolunun, irsinin, siyasi və dövlətçilik fəaliyyətinin öyrənilməsində olduqca vacibdir. Çünki Ulu Öndərin ömür yolu və dövlətçilik fəaliyyəti xalqımızın qürur və şərəf tarixidir. 1990-1993-cü illərdə Ulu Öndərin siyasi və dövlətçilik fəaliyyətinin Naxçıvan dövrü xüsusilə əlamətdardır. Xatırlayıram ki, o vaxt Naxçıvan Muxtar Respublikasına Ermənistan tərəfindən hərbi hücumlar, digər tərəfdən, qonşu dövlətlərin bu məsələyə laqeyd qalması, ümumilikdə, Naxçıvan Muxtar Respublikasının səsinin duyulmadığı o illərdə Ümummilli Liderimiz Naxçıvanı işğal və məhvdən qoruya bilmişdir. Xatırlayıram ki, hələ o ağır və böhranlı illərdə Ulu Öndər Naxçıvan Muxtar Respublikasından 75 tələbənin Türkiyədə dövlət hesabına təhsil almasına nail olmuşdur. Bütün bunların hamısının arxasında Ulu Öndərin ideyaları, Onun gələcəyə baxışları dayanırdı. Və bu gün də mən sevinirəm ki, bu siyasət cənab Prezidentimiz tərəfindən uğurla aparılır və göstərir ki, Azərbaycan etibarlı əllərdədir və Onun irsi, mirası uğurla gələcəyə doğru irəliləyir. Regionun gündəliyini bu gün Azərbaycan diktə edir, böyük güclər Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşırlar. Qürurla deyə bilərik ki, ötən 20 il ərzində Ümummilli Liderin arzuları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində reallaşdırılmış və Naxçıvan Muxtar Respublikası üçün nəzərdə tutulan məsələlər də məhz bu kontekstdə öz həllini tapmışdır. Naxçıvan Muxtar Respublikasının gələcək sosial-iqtisadi inkişaf strategiyasının əsasında da məhz Ümummilli Lider Heydər Əliyevin siyasi xətti və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşımıza qoyduğu vəzifələr dayanır.

***– Ümumiyyətlə, Naxçıvanda sosial-iqtisadi islahatlar hansı mərhələdədir və necə gedir?***

– Bilirsiniz ki, Prezidentimizin qətiyyətli və israrlı siyasəti nəticəsində Zəngəzur dəhlizi artıq reallaşmaqdadır. Zəngəzur dəhlizi reallaşdırıldıqdan sonra Naxçıvan üçün böyük perspektivlər açılır. Bizim əsas vəzifələrimizdən biri məhz bu perspektivlərə, bu reallıqlara Naxçıvanı hazırlamaqdır. Perspektiv planlar sırasında Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" dəhlizinə çevrilməsi prioritetlərdən biridir. İqtisadiyyatın müxtəlif sahələrində inkişaf proqramları işlənib hazırlanır. Xüsusilə ərzaq təhlükəsizliyinin və əhalinin məşğulluğunun təmin olunması işində roluna görə aqrar sahənin inkişafına daha çox diqqət ayrılır. Bu sahə ilə sıx bağlı olan meliorasiya və irriqasiya sistemlərinin müasirləşdirilməsi və su təminatının, su keyfiyyətinin yaxşılaşdırılması vacib məsələlərimizdən biridir. Naxçıvan Muxtar Respublikasında özəl sektorun inkişaf etdirilməsi, sahibkarlığa dəstək və investisiyaların cəlbi də əsas hədəflərimiz sırasındadır. Ümumilikdə, xammal potensialı daha çox olan ərazilərimizdə ailə təsərrüfatlarına, kiçik və orta biznesə dəstək, subsidiyaların verilməsi ən vacib məqamlardan biridir. Qarşıdakı əsas məqsədlərimizdən biri daxili və xarici bazarlar üçün "Orqanik Naxçıvan" ekoloji təmiz qida məhsullarının istehsal, emal, tədarük və çatdırılma zəncirini formalaşdırmaqdır. Naxçıvan Muxtar Respublikasında yeni başlayan işlərdən biri də ərazinin mineral xammal ehtiyatlarının yenidən öyrənilməsidir. Hesab edirik ki, mövcud potensial əsasında rəqabətədavamlı yeni sənaye müəssisələrinin qurulması mümkündür ki, bunun da nəticəsində iqtisadi inkişaf tempi sürətlənəcək.

Prezident cənab İlham Əliyevin strateji hədəflərindən biri də Azərbaycan Respublikasında iqtisadiyyatın təcrübəyə, ənənəyə söykənməsi və innovativliyidir. Naxçıvanda da ənənəyə və yerli xammala söykənən sənaye müəssisələrinin qurulması, innovasiyaların tətbiqi prioritetdir. Ölkəmizdə istehsal və xidmət sektoru üzrə ixtisaslaşan onlarla brendin ötən 3 ayda Naxçıvana gəlməsi onu göstərir ki, Naxçıvan investisiyalar üçün cəlbedici məkandır. Yaxın günlərdə Naxçıvanda yeni duz istehsalı zavodu və mineral sular istehsalı sahələri də fəaliyyətə başlayacaq. Ordubadda ənənəvi konserv və ipəkçiliyin yenidən canlandırılması da hədəfimizdir.

***– Sizin muxtar respublikaya təyinatınızdan sonra Naxçıvanda əsaslı struktur və kadr islahatlarının aparıldığını müşahidə edirik. Proses hansı mərhələdədir və nəticələri nədən ibarət olacaq?***

*Ardı 4-cü səhifədə*

– Sahil müəllim, əgər nəzərə alsaq ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkib hissəsidir, struktur islahatları vacib məqam kimi önə çıxır. Nəzərə almaq lazımdır ki, müəssisə və təşkilatlarımızın Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları ilə sıx işləməsi üçün struktur dəyişikliklərinin aparılması labüddür və qaçılmaz bir prosesdir. Siz təsəvvür edin ki, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvanda yerləşən adekvat qurumları 4-5 parçaya bölünmüş vəziyyətdədir. Onun metodiki bazası, demək olar ki, mövcud deyil. Burada struktur vahidlərinin bəziləri natamamdır. Maddi-texniki baza isə, demək olar ki, tam formalaşmış vəziyyətdə deyil. Ona görə də bu gün muxtar respublikada, gördüyünüz kimi, struktur islahatları tam sürətlə davam edir. Əvvəlcədən elan etdiyimiz kimi, şəffaflıq və peşəkarlıq əsas prinsiplərimizdən biridir. Ona görə də bu tələblərə cavab verməyən, bu tələbləri qarşılaya bilməyən struktur rəhbərləri də vəzifələri ilə vidalaşmalı oldular. Onlarla nazirlik, komitə, idarələrin rəhbərləri novator, enerjili, peşəkar və şəffaf mühitdə işləməyi bacaran kadrlarla əvəzləndi...

*– Fuad müəllim, bilirsiniz ki, həm 90-cı illərin ağır blokada və böhran dövrü, həm də Ermənistanın başlatdığı təcavüzkar müharibə, təsərrüfatların dağılması nəticəsində Naxçıvan Muxtar Respublikasında əhalinin sosial vəziyyəti son dərəcə acınacaqlı idi... Sosial-iqtisadi böhran, işsizlik yüzlərlə ailənin Naxçıvandan köçüb getməsi ilə nəticələndi. İndi qarşınızda insanların doğma torpağa qayıdışı, təsərrüfat və iqtisadi fəaliyyətlə məşğul olması ilə bağlı hər hansı konsepsiya və təşəbbüslər varmı?*

– Bu sizin də qeyd etdiyiniz kimi, 1 il, 5 il ərzində yox, illər ərzində baş vermiş problemdir. Önümüzdə duran vəzifələr ondan ibarətdir ki, biz digər məsələlər kimi, bu məsələni də mərhələli şəkildə həll edək. İlk növbədə, Naxçıvana yerli və xarici investisiyaların cəlb olunması, iş yerlərinin yaradılması vacibdir. Eyni zamanda dövlət-özəl təşəbbüslərin formalaşdırılması sahəsində işlər gedir. Demək olar ki, makroiqtisadi sahənin bütün göstəriciləri yenidən ələ alınır, təhlil olunur, harada geriləmələr, harada inkişaf templəri mümkündürsə, biz ən operativ şəkildə məsələlərə müdaxilə edirik. Və inanıram ki, yaxın bir neçə il ərzində əhalinin geri qayıdışı təmin olunacaqdır. Lakin bu geri qayıdış əsaslı formada olmalıdır. İndi biz bəzən belə bir halla qarşılaşırıq ki, bir çoxları geri qayıdışın çağırışlarla həyata keçirilməsindən danışır. Ancaq bu məsələ təkcə çağırışlarla deyil, eyni zamanda əhalinin yaşayış minimumlarının ödənilməsi, iş yerlərinin açılması, onların işlə təmin olunması ilə birgə həllini tapmalıdır. Deyə bilərəm ki, bu məsələ də önümüzdə duran əsas vəzifələrdəndir və bu istiqamətdə işləyirik.

*– Sizin təyinatınızdan sonra Naxçıvana intensiv səfərlərin baş verdiyini müşahidə edirik. Xüsusən Baş Nazirin müavininin, energetika nazirinin, iqtisadiyyat nazirinin, digər rəsmi şəxslərin rəhbərliyi ilə nümayəndə heyətləri Naxçıvanda görüşlər keçirdi, perspektiv imkanları dəyərləndirdilər. Artıq bir sıra vacib sahələr üzrə inkişaf konsepsiyalarının hazırlandığı da məlumdur. Konkretləşdirsək, bu səfərlərin nəticələri Naxçıvan üçün nə vəd edir?*

– Bu sual üçün sizə təşəkkürümü bildirirəm. Qısa bir vaxtda – 2023-cü ilin yanvar ayı ərzində biz Naxçıvan Muxtar Respublikasındakı problemləri ümumiləşdirdik, prioritet sahələr dəqiqləşdirildi. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə məruzə təqdim olundu, qarşıda dayanan vəzifələr müəyyənləşdirildi. Cənab Prezidentimizin aid qurumlara göstərişləri ilə yerində baxış, təhlil və dəyərləndirmələr üçün səfərlər başladı. Ölkənin müxtəlif mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin Naxçıvana olan səfərləri çərçivəsində biz məruzədəki məsələləri bir daha müzakirə etdik. Qeyd etmək istəyirəm ki, 4 əsas sahədə bizim ilkin və faydalı görüşlərimiz oldu və bunların əsasında strateji konsepsiyalar formalaşdırıldı və tədbirlər planı işləndi. Bunlar hansılardır? Əvvəlcə onu qeyd edim ki, su komissiyasının – başda Baş Nazirin müavini, hörmətli Şahin Mustafayev olmaqla muxtar respublikaya 3 günlük səfəri oldu. Bu səfərin nəticəsində biz geniş bir tədbirlər planı hazırladıq. Bilirsiniz ki, Naxçıvan Muxtar Respublikası kəskin kontinental iqlimə malikdir. Muxtar respublikanın ərazisində su ehtiyatları olduqca məhduddur. Naxçıvanda ən vacib və dayanıqlı su mənbəyimiz isə Araz çayıdır. Yəqin ki, önümüzdəki illərdə də bu reallıq dəyişməyəcək. Məlumdur ki, Naxçıvandakı əsas su ehtiyatlarının hər birinin mənbəyi qonşu dövlətlərin ərazisindədir. Bütün bu və ya digər məsələlər dəyərləndirilir. Bizim su komissiyası ilə birlikdə formalaşdırdığımız tədbirlər planı artıq komissiyanın ilkin iclasında təsdiq olunub, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə texniki, maliyyə-iqtisadi əsaslandırma üçün təqdim edilib.



Digər bir sahə Azərbaycan Respublikası Energetika Nazirliyinin idarəçiliyindəki məsələlərlə bağlı idi. Bilirsiniz, nazir Pərviz Şahbazovun muxtar respublikaya səfəri oldu. Ondan sonra energetika komissiyasının iclasları keçirildi, Naxçıvan Muxtar Respublikasının vəzifəli şəxsləri də bu komissiyanın üzvüdürlər və Naxçıvanı “yaşıl enerji” dəhlizinə çevirmək üçün ciddi işlər görülür, tədbirlər planı hazırlanır. Bizim müəyyənləşdirdiyimiz Naxçıvan Muxtar Respublikasında bərpa olunan enerji ehtiyatları 3 min meqavatın üzərindədir. Və bunun böyük bir hissəsi də Günəş enerjisindən ortaya çıxır. Radiasiya Naxçıvan Muxtar Respublikası ərazisində olduqca yüksəkdir və düşünürəm ki, yaxın zamanda bizim bu resurslardan tam istifadəmiz real olacaq.

Daha bir vacib sahə isə kənd təsərrüfatıdır. Mən başlanğıcda da bu sahənin nə qədər mühüm olduğunu qeyd etdim. Ərzaq təhlükəsizliyi və əhalinin məşğulluğunun təmin olunması üçün aqrar sahə bizim üçün olduqca vacibdir. Tamamilə düzgün qeyd etdiniz, biz həm konsepsiyanı, həm kənd təsərrüfatının inkişafına dair tədbirlər planını formalaşdırıb mərkəzi hökumətə təqdim etmişik və yəqin ki, yaxın günlərdə onun da müzakirəsində iştirak edəcəyik. Bu arada, əhəmiyyətli işlərdən biri də ilin birinci rübündə Prezident Administrasiyasının dəstəyi ilə Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatlarının uçotunun aparılması oldu.

Şəhid ailələrinə, qazilərə, sosial qayğıya ehtiyacı olanlara diqqət bundan sonra da ən yüksək səviyyədə olacaq. Bu ilin birinci rübündə Naxçıvanda bu kateqoriyadan olanlara dövlət tərəfindən onlarla mənzil və avtomobil verilmişdir. Bu sahə tamamilə şəffaflaşdırılmışdır. Hazırda Naxçıvanda “ASAN xidmət” mərkəzi, DOST Mərkəzi kimi mühüm layihələrin tikintisi son mərhələdədir. Bu da özlüyündə dövlətin mühüm sosial proqramlarının Naxçıvanda da icrasının təsdiqidir.

*– Bəs səhiyyə?..*

– Söz yox ki, bütün bu məsələləri sadalayarkən, səhiyyədən kənarda qalmaq qeyri-mümkündür. Əhalinin sağlamlığı ilə bağlı cənab Prezidentimizin qarşımıza qoyduğu konkret tapşırıqlar var. Hazırda müasir idarəetmə metodları, çevik idarəetmə prinsipləri işlənib hazırlanır. Ən qısa müddətdə bu sahədə yeniliklərin şahidi olacağıq. Bütün bu sadaladıqlarım, sözsüz ki, Naxçıvanda əhalinin sağlamlığının qorunmasına, gəlirlərinin artmasına, sosial və iqtisadi rifahın yüksəlməsinə səbəb olacaqdır.

*– Siz fəaliyyətə başladığınız ilk gündən vətəndaşlarla işə xüsusi əhəmiyyət verdiniz, çox ciddi yanaşdınız. Mətbuatda dərc olunan və Naxçıvan televiziyasının efirində yayımlanan videomateriallardan da görürdük ki, muxtar respublikanın bütün rayonlarında vətəndaşlarla görüşdünüz, onların təklifləri, şikayətləri və problemləri ilə yerindəcə maraqlandınız. Biz vətəndaşların səsləndirdiyi şikayət və təkliflər üzərində də konkret işlərin görüldüyünün artıq şahidiyik. İstərdim, bir məsələyə də aydınlıq gətirək: sakinlər, əsasən, nə barədə müraciət edirdilər və onların əsas qaldırdığı problem nədən ibarət idi?*

– Tamamilə düzgündür... Biz ilk günlərdən rayonlarda qəbullar keçirməyə başladıq. Bu qəbulların əsasında protokollar formalaşdırıldı. Daha sonra biz problemləri muxtar respublika ərazisi üzrə kateqoriyalaşdırdıq. Statistik rəqəmlər göstərir ki, həm Naxçıvan şəhərində, həm də rayonlarda, ümumilikdə, 9 mindən artıq şikayət və vətəndaş dinlənilmiş və onların problemlərinin həlli üçün tədbirlər planı hazırlanmışdır. Hər bir rayon üzrə protokollar mövcuddur. Naxçıvan Muxtar Respublikasındakı problemlər, əsasən, əhalinin mülkiyyət hüquqlarının pozulması ilə bağlıdır. Təəssüflə qeyd edirəm ki, bu da ötən illərdə baş vermiş bəzi qanunsuz fəaliyyətlərin nəticəsində ortaya çıxmışdır. İndi məhkəmə orqanları bu məsələlərlə yaxından məşğuldurlar. Ədalətli qərarlar və şəffaf həll yolları ortaya çıxarılır. Digər bir məsələ əhalinin iş təminatında qarşılaşdıqları problemlər idi. Və sıralaması ilə sosial hüquqların pozulması məsələləri öndə idi. Əlbəttə ki, Naxçıvan iqliminə uyğun olaraq baş vermiş və ümumiyyətlə, son dövrlərdəki iqlim dəyişikliyi ilə əlaqədar quraqlığın nəticəsində əhaliyə dəyən zərərlərin ödənilməsi, suvarma, su təminatı ilə bağlı şikayətlər də az deyildi...

*– Əvvəlki illərlə müqayisədə bu ilin əvvəlində tikinti sektorunda müəyyən qədər durğunluq hiss olunurdu. Xahiş edirəm, bunun səbəbini aydınlaşdıraq. Ümumiyyətlə, tikinti sektorunda hansı canlanmalar, dəyişikliklər gözlənilir? Muxtar respublika üçün hansı əhəmiyyətli layihələrin icrası planlaşdırılır?*

– Tamamilə haqlısınız... Tikinti sektoru elə bir sahədir ki, özü ilə bərabər, 42 müxtəlif sahənin işləməsinə, əhalinin işlə təmin olunmasına səbəb olur. Ancaq tam haqlısınız ki, Naxçıvan Muxtar Respublikasında 2023-cü ildə tikinti sektorunda durğunluq var... Qeyd etmək istəyirəm ki, ötən illər ərzində Naxçıvan Muxtar Respublikasında aparılan tikinti sadəcə dövlət sektorunun sifarişləri əsasında baş vermişdir. Təəssüf hissi ilə qeyd edirəm ki, bu sahədə şəffaflıq tam təmin olunmayıb. Ümumiyyətlə, Şəhərsalma və Arxitektura Komitəsinə həddindən artıq böyük səlahiyyətlər müəyyənləşdirilməklə bu işlər aparılmışdır və bu da ciddi suallar ortaya çıxarmışdır. Bizim məqsədimiz isə Naxçıvanda dövlət sifarişləri ilə bərabər, özəl sifarişlərin artırılması və bu özəl sifarişlərin bazarın tələbinə əsasən formalaşdırılmasından ibarətdir. Bu sahədə ciddi sıçrayışlar olacaq. Yaxın 2-3 ay ərzində Naxçıvan şəhərinin özündə çox böyük tikinti-inşaat sənayesi ilə bağlı işlər görüləcək. Özəl şirkətlərin güzəştli mənzillərin, sosial evlərin tikintisi ilə bağlı böyük bir layihəsi qarşımızdadır. Hesablamalarımıza əsasən bu proses 3 minə yaxın yeni iş yerinin açılması ilə yekunlaşacaqdır.

Başqa bir məsələni qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasında dövlət sifarişləri əsasında tikilmiş tikililərin bir çoxu da öz funksiyalılığına görə, çox təəssüf ki, yarıtmaz vəziyyətdədir. Bu sahədə də bizim yeni işlərimiz olacaq. Yeni dövlət sifarişli tikinti layihələri başlayacaqdır. Bildirim ki, hazırda Naxçıvan şəhərinin baş planı da hazırlanmaqdadır. Əlbəttə ki, bütün bunlar hər biri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilik aktlarının tələbləri əsasında formalaşdırılacaq. Bunun üçün də istər-istəməz müəyyən bir müddət tələb olunur. Normativ sənədlərin formalaşdırılması üçün bu müddətin gözlənilməsi əsas şərtlərdəndir. Ancaq bu sahə bizim nəzarətimizdədir. Fikirləşirəm ki, əsas hədəflərdən biri olaraq tikinti sahəsinin inkişafı qaçınılmaz və labüddür.

*– Fuad müəllim, Zəngəzur dəhlizi ilə bağlı fikirlərinizi bildirdiniz. Zəngəzur dəhlizinin açılması ölkəmizin, eləcə də Naxçıvan Muxtar Respublikasının tarixi taleyində müstəsna bir məsələdir və həm də qeyd etdiyimiz kimi, həm logistik, həm də tranzit imkanlar xeyli dərəcədə artacaqdır. Soruşmaq istərdim, Zəngəzur dəhlizinin açılması fonunda muxtar respublikanın nəqliyyat, tranzit və turizm imkanlarını necə dəyərləndirirsiniz? Həm də nəzərə alaq ki, bu, eyni zamanda xidmət sektoruna da təsir edəcək...*

– Mən Ulu Öndər Heydər Əliyevdən sitat gətirmək istəyirəm... Xatırlayırsınızsa, neft strategiyasının işləndiyi illərdə Ümummilli Lider deyirdi: ***“Azərbaycan dünyaya Günəş kimi doğacaqdır”***. Bu mənada, Zəngəzur dəhlizinin perspektivi və reallaşması Naxçıvan üçün deyil, ümumilikdə, region və dünya üçün olduqca əhəmiyyətlidir. Bu böyük layihədən Naxçıvan da öz töhfəsini götürəcəkdir. Cənab Prezidentin bu barədə qətiyyətindən və onun siyasətinin müvəffəqiyyətlə sonlanacağından əminəm. Naxçıvan Muxtar Respublikasında Zəngəzur dəhlizi geniş perspektivlər açır. Bu, sadəcə, turizmlə yekunlaşmır. Eyni zamanda böyük nəqliyyat infrastrukturunun formalaşdırılmasına xidmət edəcəkdir. Dəhliz vasitəsilə Naxçıvan dəhlizi formalaşdırılacaqdır. Zəngəzur dəhlizindən sonra bizim Avropaya açılan qapılarımız məhz Naxçıvan dəhlizi vasitəsilə həyata keçiriləcəkdir. Naxçıvan Muxtar Respublikası ərazisində müxtəlif böyük logistika parkları, böyük depoların formalaşdırılması nəzərdə tutulur ki, bütün bunlar da ətrafında onlara xidmət sektoru ilə birlikdə böyük sahələrin inkişafına səbəb olacaqdır. Söz yox ki, bu, muxtar respublikanın ərazisində istər ictimai iaşə obyektlərinin, istərsə də bu dəhlizə xidmət etmək üçün digər obyektlərin tikintisinə rəvac verəcəkdir. Bu, eyni zamanda digər xidmət növlərini də özündə birləşdirir. Bir daha deyirəm: tam əminəm ki, bunun qısa müddətdə reallaşdırılmasının şahidi olacağıq.

*– Ümumiyyətlə, idarəetmədə və inkişafda ən prioritet sahələrdən biri təhsildir. Çünki yüksəkixtisaslı kadrlar olmadan, xüsusən innovasiyalar zamanında yaşayırıqsa, mütləq müasir dövrün tələbinə uyğunlaşan kadrların hazırlanması müstəsna əhəmiyyət kəsb edir. Bəs siz muxtar respublikadakı təhsil mühitini necə dəyərləndirirsiniz?*

– Bu gün Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti, Naxçıvan Müəllimlər İnstitutu təkcə təhsil sahəsində deyil, ümumiyyətlə, Naxçıvanın inkişafı sahəsində öz üzərinə ciddi məsuliyyət götürüb. Mən bu baxımdan Naxçıvan Dövlət Universitetinin imkanlarını daha yüksək qiymətləndirirəm. Çünki Naxçıvan Dövlət Universiteti ölkəmizdə olan unikal universitetlərdən biridir. Universitetin özünün böyük kampusu və yüksək imkanları vardır. Kənd təsərrüfatı, hüquq, tibb, mədəniyyət, İKT, xarici dillər, beynəlxalq münasibətlər və digər bir çox ixtisasları bir arada birləşdirən Azərbaycan Respublikasında tək universitetlərimizdəndir. Gələcəkdə Naxçıvan Dövlət Universitetinin bazasında yeni ingilisdilli xəttinin yaradılması bizim prioritet məsələlərimizdən biridir. Dünyaca məşhur olan IBM şirkəti Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri ilə birlikdə yeni bir mühəndislik institutunun açılması ilə bağlı müraciət etmişdir. Hazırda bunun reallaşdırılması imkanlarına baxılır. “Naxçıvan” Universiteti də bizim üçün çox əhəmiyyətlidir. Fikirləşirəm ki, “Naxçıvan” Universiteti xarici dövlətlərlə birgə universitetin yaradılması üçün əsas infrastruktur rolunu oynaya bilər. Və mən bunun gələcəyinə inanıram. Təhsilin digər sahələrində və digər pillələrində də, əlbəttə ki, biz müxtəlif beynəlxalq təcrübələrdən istifadə etmək niyyətindəyik. Bu arada, aparıcı tədris dili rus və ingilis dili olan orta məktəblərin formalaşdırılması sahəsində işləri davam etdiririk. Bununla bağlı araşdırmalarımız var. Ümumilikdə, təhsil şəriştəyə davamlı, təcrübəyə davamlı və innovativ metodlarla həyata keçirilməlidir. Bu sahə də bizim əsas diqqətimizdə olan məsələdir.

*– Çox sağ olun!*

– Təşəkkür edirəm!

## Naxçıvanda Vergiödəyicilərinə xidmət mərkəzi istifadəyə verilib



*Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində Vergiödəyicilərinə xidmət mərkəzinin açılışı olub.*

Mərkəzin açılışı ilə əlaqədar muxtar respublikaya səfər edən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə çiçək dəstələri düzüb. Daha sonra Dövlət Vergi Xidmətinin rəisi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşüb.

Görüşdən sonra Naxçıvan Vergiödəyicilərinə xidmət mərkəzinin açılış mərasimi keçirilib. Açılış mərasimində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Naxçıvan Muxtar Respublikası hökumətinin və Dövlət Vergi Xidmətinin rəhbər vəzifəli şəxsləri, sahibkarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərkəzin açılışında çıxış edən muxtar respublikanın baş naziri Səbuhi Məmmədov müxtəliftəyinatlı xidmət mərkəzlərinin qurulmasının vətəndaş məmnunluğunun təmin olunmasına xidmət etdiyini bildirib. Vergiödəyicilərinə xidmət mərkəzinin yerli sahibkarların məlumatlandırılması işinə böyük töhfə verəcəyini qeyd edən baş nazir son dövrlərdə muxtar respublikanın vergi sistemində aparılan struktur və inzibatçılıq islahatlarına toxunub. Bildirilib ki, 2023-cü ildə vergi daxilolmalarında və yeni qeydə alınan sahibkarların sayında əhəmiyyətli artımlar müşahidə olunur.



Azərbaycan Respublikasında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində Vergiödəyicilərinə xidmət mərkəzinin açılışının muxtar respublikanın biznes mühitində mühüm hadisə olduğunu bildirib, vergiödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılmasına xidmət etdiyini vurğulayıb. Qeyd edib ki, hazırda ölkə üzrə müasir standartlara cavab verən 58 belə xidmət mərkəzi uğurla fəaliyyət göstərir. Bu mərkəzlər sahibkarlara hesabatların göndərilməsində, vergi qanunvericiliyi sahəsində maarifləndirmə prosesində, müxtəlif vergi xidmətlərinin əldə edilməsində böyük dəstək göstərir.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi Abbas İsmayılov bildirib ki, vergilərin könüllü ödənilməsi sisteminin gücləndirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması, vergiödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi və daha əlçatan olması məqsədilə Naxçıvan şəhərində ilk dəfə olaraq Vergiödəyicilərinə xidmət mərkəzi istifadəyə verilib. Mərkəz geniş funksiyalara malik olmaqla sahibkarlara vergi sahəsi üzrə bütün xidmətləri göstərəcək.

Yeni istifadəyə verilən Vergiödəyicilərinə xidmət mərkəzində sahibkarlara vergi uçotuna alınmaq, vergi qanunvericiliyinin tətbiqi, vergi bəyannamələrinin tərtib edilməsi və göndərilməsi, vergiödəyiciləri ilə vergi orqanı arasında elektron sənəd mübadiləsinin aparılması və Asan İmza sertifikatlarının verilməsinə dair xidmətlər göstəriləcək. Həmçinin müraciət edənlərə büdcəyə olan borcların öyrənmək və öz şəxsi vərəqələrinə nəzər salmaq imkanı yaradılıb. Sabit vergi ödəyən fiziki şəxslər sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzi də xidmət mərkəzindən əldə edə biləcəklər.

Qarşıdakı dövrdə muxtar respublikada fəaliyyət göstərən vergiödəyiciləri üçün vergi xidmətlərinin əlçatanlığının artırılması və könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə nail olunması məqsədilə xidmət mərkəzləri şəbəkəsinin daha da genişləndirilməsi nəzərdə tutulur.

Sonda tədbir iştirakçıları xidmət mərkəzinin texniki imkanları və vergiödəyiciləri üçün yaradılan şəraitlə tanış olublar.

## Azərbaycandakı Türkiyə vətəndaşlarının səsverməsi başlayıb

Xarici ölkələrdə yaşayan Türkiyə vətəndaşlarının Türkiyədə mayın 14-də keçiriləcək prezident və parlament seçkiləri üçün səsverməsi başlayıb.



Azərbaycan Respublikası üzrə 11 min, Naxçıvan Muxtar Respublikası üzrə isə 1350 nəfər seçici qeydə alınıb. Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunda qardaş ölkə vətəndaşlarının səsvermədə fəal iştirakı üçün hər cür şərait yaradılıb.

Dünən səhər saat $9^{00}$-da Baş Konsulluqda yaradılan səsvermə məntəqəsində prosesə start verilib. İlk olaraq Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya səsvermədə iştirak edib.

Qeyd edək ki, birinci mərhələdə səsvermə mayın 8-i saat $21^{00}$-dək davam edəcək. Seçkilər ikinci mərhələyə qalarsa, bu mərhələ üçün səsvermə isə 20-22 may tarixlərdə keçiriləcək. Naxçıvan Muxtar Respublikasında isə səsvermə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunda (Heydər Əliyev küçəsi 17) keçiriləcək.

Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya “Şərq qapısı” qəzetinə açıqlamasında bildirib ki, səsvermə 3 gün davam edəcək: “İlk olaraq seçkilər ölkəmiz üçün xeyirli-uğurlu olsun. 2014-cü ildən bəri xarici ölkələrdə yaşayan türk vətəndaşları səsvermə hüquqlarından istifadə edirlər. Artıq bu onların 6-cı dəfə səsverməsidir. Bu gün xaricdə yaşayan 3 milyondan çox Türkiyə vətəndaşının səsverməsi gözlənilir. Ölkəmiz tərəfindən 73 ölkədə 151 təmsilçiliyimizdə məntəqə yaradılıb. Hətta təmsilçiliyimiz olmayan ölkələrdə belə səsvermə qutuları quraşdırılıb. Bu gün digər yerlərdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da Türkiyə vətəndaşlarının səs verməsi üçün Baş Konsulluqda məntəqə yaradılıb. Səsvermə 3 gün səhər saat $9^{00}$-dan axşam $21^{00}$-dək davam edəcək. Naxçıvanda 1350 türk vətəndaşının səs verməsi gözlənilir”.

**Ceyhun MƏMMƏDOV**

## Ölkəmiz Qafqazda sülh və əməkdaşlığını fəal təşviqatçısı olduğunu növbəti dəfə dünyaya bəyan etdi

*Tarixboyu Vətənimizi və müqəddəs torpaqlarımızı qorumaq ən ali amalımız, vəzifəmiz olub. Lakin xalqımız müstəqillik qazanmaq arzusunun gerçəkləşməsinə az qalmış erməni qəsbkarları tərəfindən torpaqlarımızın işğalı ilə üzləşib. Hakimiyyətdə olan qüvvələrin yarıtmaz fəaliyyəti Qarabağın, doğma Şuşamızın işğalı ilə nəticələnib. Şuşanın işğalı xalqımız üçün ən böyük zərbə, böyük fəlakət olub.*

90-cı illərdə dağılmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycanı Ümummilli Liderimiz Heydər Əliyev xilas edib, xalqımıza arzuladığı, uğrunda mübarizələr apardığı müstəqilliyini, azadlığını bəxş edib. Görkəmli dövlət xadimi ən yüksək kürsülərdə çıxışları zamanı torpaqlarımızın işğalını pisləyib, haqq-ədalətin bir gün öz yerini tapacağına, torpaqlarımızın işğaldan azad ediləcəyinə əminliyini ifadə edib. Ulu Öndərin ən böyük arzusu olan Şuşanın azadlığını onun siyasi varisi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev gerçəkləşdirdi. 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Prezident cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsi, qüdrətli ordumuzun canı-qanı bahasına əldə edilən Böyük Zəfərin təməli məhz noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə qoyuldu. Beləliklə, ata vəsiyyətini yerinə yetirən Ali Baş Komandan cənab İlham Əliyevin bu xəbəri böyük fəxarətlə Şəhidlər xiyabanından elan etməsi bütün azərbaycanlılara sevinc, qürur yaşatdı. Böyük Zəfər nəticəsində imzalanan üçtərəfli Bəyanatla Ermənistan Azərbaycan qarşısında məğlubiyyətini etiraf etdi və sülh üçün razılığa gəlindi. Lakin ötən müddətdə Ermənistan bəyanatın prinsiplərinə laqeyd yanaşaraq dəfələrlə müxtəlif addımlarla onun müddəalarını pozmuşdur.



Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda postmünaqişə dövründə bir daha Azərbaycan və Ermənistan arasında sülh gündəliyinə nəzər salınıb, onun Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təminində mühüm roluna diqqət çəkilib. Bir çox cəhətlərinə görə əlamətdar olan bu konfransın keçirilməsi üçün Şuşanın seçilməsi təsadüfi deyildi. Şuşa Türk dünyasının mədəniyyət paytaxtı, tarixi, mədəni, strateji əhəmiyyətli Azərbaycan şəhəridir. Eyni zamanda Şanlı Zəfərimizin rəmzidir. Ötən ilin “Şuşa ili” elan edilməsi və onun 270 illiyinin dövlət səviyyəsində geniş qeyd edilməsi Şuşanın tarixi Azərbaycan şəhəri olduğunu dünyaya bir daha təsdiq etdi. Konfransın Şuşada keçirilməsinin əhəmiyyətinə toxunan ölkə başçısı Şuşanın heç vaxt ermənilər üçün doğma şəhər olmadığını, işğal dövründə, demək olar ki, tamamilə dağıdıldığını bildirdi, Şuşada aparılan bərpa və yenidənqurma işlərinə diqqəti çəkdi.

ABŞ-ın Hərbi Dəniz Donanması Ali Məktəbinin professoru Brenda Şaferin də konfransda dediyi kimi, Azərbaycan BMT-nin qətnamələrini özü icra etməli oldu. Ölkəmiz Böyük Zəfərlə tarixi ədaləti, beynəlxalq hüququn norma və prinsiplərini bərpa etdi. Ölkəmiz sülh sazişi haqqında danışıqların başlanılmasının təklif etməklə Cənubi Qafqazda daim sülhün, təhlükəsizliyin tərəfdarı kimi çıxış edir. Ölkə başçısı dəfələrlə Ermənistanı düşmənçilik səhifəsini bağlamağa çağırmış, sülh sazişinin onların marağına xidmət edəcəyini demişdir. Lakin Ermənistan müxtəlif bəhanə və addımlarla bu prosesi ləngitmişdir. Konfransda dövlətimizin başçısı sülh məsələsi ilə bağlı onu da qeyd etdi ki, əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq. Onlar yenə də təcrid edilməli və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer axtarmalı olacaqlar. Ölkə başçısı Ermənistana havadarlıq edənləri, keçmiş Minsk qrupunun həmsədr ölkələrini kömək etmək istəyirlərsə, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına dəstək olmağa çağırdı.

Müharibədə olduğu kimi, sülh dövründə də daim Azərbaycanın yanında olan və ona dəstək verən Türkiyə regionda sülh və sabitlik üçün Ermənistanla dayanıqlı sülhü dəstəkləyir. 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentlərinin imzaladıqları “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə davamlı inkişafını təmin edir, eyni zamanda müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım, ölkələrimizin qüdrətini artıran hərbi sənaye sahəsində əməkdaşlıq məsələlərini də özündə əks etdirir. Prezident cənab İlham Əliyev konfransda Şuşa Bəyannaməsinin imzalanmasının tarixi hadisə olduğunu, Prezident Rəcəb Tayyib Ərdoğanın Türkiyəyə rəhbərlik etdiyi son iyirmi ildə münasibətlərimizin təkcə qardaş xalqlar arasında deyil, eyni zamanda müttəfiqlər arasında olan münasibətlərə çevrildiyini, hər iki ölkənin müttəfiqliyinin regional sabitliyin və təhlükəsizliyin təminində mühüm rol oynadığını bir daha dünyaya bəyan etdi.

Konfransda iqtisadi və dayanıqlı inkişaf siyasətindən, bu mənada, böyük potensiala malik olan “Bir kəmər, bir yol” layihəsinin roluna diqqət çəkildi. Ölkə başçısı Çinin “Bir kəmər, bir yol” təşəbbüsünün həmişə Azərbaycan tərəfindən dəstəkləndiyini, bu yolun təkcə nəqliyyat təhlükəsizliyi baxımından deyil, həm də kommersiya baxımından əhəmiyyətli olacağını diqqətə çatdırdı. Zəngəzur dəhlizinin “Bir kəmər, bir yol” layihəsinin və ya Şimal-Cənub Dəhlizinin tərkib hissəsi ola biləcəyini qeyd edən dövlətimizin başçısı Naxçıvan ərazisindən İranın dəmir yolu ilə bağlantısı olduğunu və bu marşrutla Fars körfəzi istiqamətində yüklər daşına biləcəyini qeyd etdi.

İstər Ermənistanla sülh sazişinin imzalanması, istərsə də Zəngəzur dəhlizinin açılması yalnız Azərbaycan və Ermənistan üçün deyil, qlobal səviyyədə mühüm əhəmiyyət kəsb edir. Bu beynəlxalq konfransla ölkə Prezidenti növbəti dəfə Şuşadan dünyaya sülh və əməkdaşlıq çağırışı etdi, ölkəmizin Cənubi Qafqazda sülh və təhlükəsizliyi fəal şəkildə dəstəklədiyini bir daha göstərdi.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Yeni monoqrafiyanın təqdimatı keçirilib

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Naxçıvan rəssamlarının yaradıcılığında ənənə və müasirlik” adlı monoqrafiyanın təqdimatı keçirilib.

Ali təhsil müəssisəsinin rektoru, dosent Elbrus İsayev tədbirdə çıxış edərək bildirib ki, müəllifi Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, universitetin İncəsənət fakültəsinin dekanı Cavid İsmayılov, elmi redaktoru Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ziyadxan Əliyev olan monoqrafiya universitet Elmi Şurasının 29 dekabr 2022-ci il tarixli Qərarı ilə çapa tövsiyə olunub. İncəsənət sahəsində elmi axtarışların nəticəsi olan bu əsər Naxçıvanda dünyaya göz açmış təsviri sənət ustalarının yaradıcılıq axtarışlarına həsr edilib.




Təqdimata onlayn qoşulan Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ziyadxan Əliyev qeyd edib ki, monoqrafiyanın əsas məzmununu Azərbaycanın sovetləşməsindən sonra Naxçıvanda baş verən bədii proseslərin iştirakçısı olan rəssam və heykəltəraşların əsərlərinin təhlili təşkil edir. Vurğulanıb ki, kitabın mətninin çoxsaylı illüstrasiyalarla müşayiət olunması da oxucuların mətni daha aydın və əhatəli anlamaq məqsədinə xidmət edir. Monoqrafiya təsviri sənət həvəskarları, rəssam və sənətşünaslar üçün nəzərdə tutulub.

Azərbaycan Respublikasının Xalq rəssamı, Təsviri incəsənət kafedrasının professoru Hüseynqulu Əliyev, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, professor Səidə Məmmədova, filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimli çıxış edərək Naxçıvanda təsviri sənətin özünəməxsus inkişaf dinamikası haqqında məlumat veriblər.

Müəllif Naxçıvanda rəssamlığın inkişafına yaradılan şəraitin yaradıcı insanlara motivasiya verdiyini diqqətə çatdırıb.

**Aidə İBRAHİMOVA**



# Heydər Əliyev İli 100

**Ulu Öndər Heydər ƏLİYEV:** ***Prokurorluq orqanlarının əsas hədəfi qanunun aliliyinin təmin olunmasıdır.***

*Heydər Əliyev Muzeyinin "Xatirə Kitabı"ndan seçmələr*

Bu çox maraqlı sərgi üçün ürəkdən təşəkkür edirəm. Bələdçini böyük məmnuniyyətlə dinlədim.

***Douvens Buş***
***ATƏT Bakı ofisi***
***2 noyabr 2007***




26.12.2007
Böyük məmnuniyyətlə muzeyi ziyarət etdim, tarixi gözdən keçirdim və keçmiş prezident Zat Aliləri cənab Heydər Əliyevin nailiyyətləri ilə yaxından tanış oldum.

***Təşəkkürlər***
***Masamitsu Oki***
***Yaponiyanın səfiri***




## Azərbaycanda müasir prokurorluq sisteminin yaradılması

### *Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır*

Hər bir xalqın milli iradə əsasında dövlət qurmaq istəyini gerçəkləşdirməsi, ilk növbədə, lider fenomeni ilə bağlıdır. XX əsrdə xalqımızın dünya siyasətinə bəxş etdiyi böyük şəxsiyyət – Ümummilli Lider Heydər Əliyev də məhz xalqımız qarşısında əvəzolunmaz xidmətləri ilə daim xilaskar və qurucu lider kimi xatırlanır, onun dövlət və xalq qarşısındakı xidmətləri ehtiramla yad edilir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr, bütövlükdə, xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real hüquqi, siyasi və iqtisadi əsasların yaradılması, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xalqın təbii konstitusion hüquqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş kimi dərk etməsi iftixar doğuran bir dövr kimi yaddaşlara yazılmışdır.

Ümummilli Liderin Azərbaycan qarşısındakı əvəzsiz tarixi xidmətlərinin ən qabarıq siyasi təzahürü isə onun dayanıqlı milli dövlət qurması və onu möhkəmləndirməsidir. 1991-ci il 18 oktyabr tarixdə qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" dövlətimizi rəsmi olaraq 1918-ci il mayın 28-də elan edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin varisi və müstəqil respublika elan etmişdir. Həmin aktda Azərbaycan xalqının, eyni zamanda idarəetmə formasını seçmək, başqa xalqlarla münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək hüququ təsbit olunmuşdur. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın 12-ci maddəsində Azərbaycan xalqının müstəqil, dünyəvi, demokratik, hüquqi və unitar dövlət yaratma yolunu tutması fikri əksini tapmışdır.

Dövlət müstəqilliyinin ilk illərində – 1991-ci ildən 1993-cü ilin iyununa qədərki mərhələdə respublikada mövcud olmuş fəlakət və sarsıntılar, ağır sosial-iqtisadi böhran, hərcmərclik, anarxiya təsdiqlədi ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. 1991-1993-cü illərdə respublikamız de-yure müstəqil sayılsa da, əslində, bu müstəqillik formal xarakter daşımış, xalqımız ədalətli və sivil dövlətdə yaşamaq arzusunu tam mənada gerçəkləşdirə bilməmişdir. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etmad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təmini, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı. Həmin illərdə hakimiyyətdə olan qüvvələrin naşı və yarıtmaz fəaliyyəti nəticəsində hüquq-mühafizə orqanlarının üzərinə düşən qanuni vəzifələri həyata keçirə bilməməsi ictimai həyatın ən müxtəlif sahələrində hərc-mərcliyin baş alıb getməsinə, cinayətkar ünsürlərin mütəşəkkil fəaliyyətinə, daxildə qeyri-sabit və təhlükəli vəziyyətə səbəb olmuşdu. Belə şəraitdə nəinki hüquqi dövlətdən, demokratiyadan, hətta insanların təhlükəsiz yaşamaq kimi fundamental hüququndan danışmaq mümkün deyildi.

Belə bir mürəkkəb şəraitdə xalqın təkidli tələb və xahişlərindən sonra hakimiyyətə qayıdan görkəmli dövlət xadimi Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Böyük şəxsiyyətin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirilmiş, vətəndaş sülhü və həmrəyliyinin təminatı istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır. Bu gün əminliklə deyə bilərik ki, dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən prokurorluq orqanlarının bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik siyasəti, yüksək qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur. Təsadüfi deyil ki, Ulu Öndərin ***"Respublika prokurorluğu və Baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir"*** dəyərli fikri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilməsidir. Ümummilli Liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə keçirilmiş referendumla qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın müəyyən məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir.

Dahi rəhbərin prokurorluğa olan diqqət və qayğısının davamı hesab edilən 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə oktyabr ayının 1-i respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuş, eyni zamanda onun şəxsi təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasında Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Həmin təntənəli yığıncaqda Ulu Öndərin ***"Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram!"*** şüarı bu gün də hər bir prokurorluq işçisi tərəfindən iftixar hissi ilə yad edilir. Ümummilli Lider Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci il tarixdə keçirdiyi müstəsna əhəmiyyətə malik görüşü Azərbaycan Prokurorluğunun demokratik məzmunda yenilənməsinə və qanunla nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işlərin səmərəli təşkilinə təminat yaratmışdır.

Vurğulamaq lazımdır ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü əsasında beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanmış 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu və 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi prokurorluğun totalitar rejimə xas funksiyalardan azad olması, fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılmaqla qanunun aliliyinin real təminatçısına çevrilməsini təmin etdi. Həmin qanunla cinayət işinin başlanmaqla ibtidai istintaqın aparılması, cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət, məhkəmədə dövlət ittihamının müdafiə edilməsi və məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak, habelə məhkəmədə iddia qaldırmaq prokurorluğun əsas fəaliyyət istiqamətləri kimi müəyyən edilmişdir.

2002-ci il sentyabrın 19-dan qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilməsi qurumun hüquq sistemindəki yerini və rolunu daha da gücləndirmişdir. Bundan əlavə, prokurorluq orqanlarının cəmiyyətdəki roluna verilən əhəmiyyətin, inamın təzahürü olmaqla prokurorluğun tərkibində korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanının – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yaradılması və həmin orqana ibtidai istintaq aparmaqla yanaşı, korrupsiya hüquqpozmaları ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin də həyata keçirilməsi ilə əlaqədar əlavə səlahiyyətlərin verilməsi nəticəsində prokurorluq qismən əməliyyat-axtarış fəaliyyətinin subyekti olmuşdur. Eyni zamanda 15 dekabr 2017-ci il tarixli Qanunla məhkəmə qərarlarından və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından protest vermək və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul etmək də prokurorluq orqanlarının fəaliyyət istiqamətləri kimi müəyyən edilmişdir.

Bu gün ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu Öndərimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Belə ki, prokurorluq orqanları dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının ən ümdə dəyər kimi qorunmasına xidmət edən, sıralarında öz vəzifə öhdəliklərini layiqincə yerinə yetirən, yüksək mənəvi, əxlaqi və peşə keyfiyyətlərinə malik olan, etik davranış qaydalarına riayət etməklə cəmiyyətin etimadını qazanmış dövlət qurumu kimi fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir".***

Prokurorluq orqanlarının ölkənin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq qarşıda duran vəzifələrin icrasını təmin etmək məqsədilə fəaliyyətinin çağdaş dövrün ictimai münasibətlərinə uyğun təkmilləşdirilməsi məqsədinə xidmət edən "Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası" bu sahədə əsas hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti əhatə edən çoxşaxəli, ardıcıl və mərhələli tədbirləri müəyyən etmişdir.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuşdur. Həmçinin prokurorluq orqanlarına işə qəbulun müsabiqə yolu ilə keçirilməsi kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır.

*Yüksək dövlət qayğısını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də dediyi kimi:* ***"Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olacaq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir".***

**Sənan PAŞAYEV**
***Naxçıvan Muxtar Respublikası prokurorunun müavini, baş ədliyyə müşaviri***

2023-cü il “Heydər Əliyev İli”dir

# Tariximizin Heydər Əliyev dövrü azadlıq amalı və tərəqqi uğrunda mübarizədir

(Esse)



***O şəxsiyyətlər tarixdə Peyğəmbər kimi böyük bir ad daşımaq hüququ qazanırlar ki, onların həyat və fəaliyyəti böyük və ülvi amallar üzərində qurulur: insanın insan kimi yaşaması uğrunda mübarizə aparmaq, onun hüquqlarının təminatçısı vəzifəsini yerinə yetirmək, haqqın və ədalətin zəfər çalmasına nail olmaq... Belə şərəfli və böyük həcmli, taleyüklü vəzifələrin həyata keçirilməsində rastlaşdığı hər hansı bir çətinlikdən, maneədən qorxub geri çəkilməmək, onları dəf etmək şəxsiyyətin bütövlük ölçüsüdür, fədailikdir. Və bu zaman xalq da belə şəxsiyyətlərin arxasında durmağı özünün mənəvi borcu hesab edir.***

### *Xalqı arxanca aparmaq bacarığı*

Qədim və şanlı tarixə malik, başı saysız-hesabsız bəlalara düçar olmuş doğma Azərbaycanımızı 35 il belə dahi idarə etdi. Heydər Əliyev idi bu dühə. Hakimiyyətə Heydər Əliyev kimi gəlmişdi – Dahiliyi isə fəaliyyəti dövründə qazanmışdı. Mövcudluğu dövründə xalqımızın nail olduğu bütün inkişaf tarixi də məhz bu illərin coğrafiyasındadır.

1969-cu ilin 14 iyulunda Azərbaycana rəhbər təyin olunan Ulu Öndər Heydər Əliyev onu qarşıda gözləyən çətinlikləri özünəməxsus peyğəmbərliklə görürdü. Onun böyüklüyü də elə bunda idi ki, bu yollardakı mübarizənin ağırlığını da, son nəticələrini də əvvəlcədən bilirdi.

Tanrı Onu bu xalqı düşdüyü bəlalardan qurtarmaq üçün yaratmışdı. O da bu müqəddəs mərama əvəzolunmaz layiqliyini Tanrı və xalqımız qarşısında sübut etdi.

O gün Azərbaycan öz ikinci həyatını yaşamağa başladı. Xalq öz həqiqi xilaskarını başının üstündə gördü, dərindən və rahat nəfəs aldı. O xilaskar da fəaliyyətə bütün tarixi yeniliklərimizə, uğurlarımıza qara eynək arxasından baxan, üzdə bir, arxada ayrı cür hərəkət edən vəzifəli şəxsləri tutduqları postlardan təmizləməklə başladı. Onlar da qısa bir vaxtda başa düşdülər ki, qarşılarındakı sıradan bir insan deyil – Heydər Əliyev kimi dahi şəxsiyyətdir bu... Böyük Sabir demişkən:

### *Bənzərəm bir qocaman dağa ki dəryada durar...*

Mənəviyyatca böyük olmayanlar həyatda ülvi amallar uğrunda mübarizə apara və uğur qazana bilməz. Mənəviyyatın meyarı daxili zənginlikdir. Daxili zənginlik isə milli-mənəvi dəyərlərə sahibliklə ölçülür. Milli-mənəvi dəyərlər tarixi köklərdən qaynaqlanır. Öz kökünə bağlı olmaqla göylərdən ulduzları belə qoparmaq olar. Ulu Öndərimiz öz kökünə bağlılığını sübut etdi və bunu böyük şəxsiyyətin fəaliyyətinin hər bir kiçik detalında izləyə bilərik.

Görkəmli dövlət xadimi hər zaman əməl qəhrəmanı olub. Azərbaycan tarixinin Heydər Əliyev dövrü məhz belə müqəddəs əməllərlə şərtlənir – bu gün bütün dünya bunu etiraf etmək məcburiyyətindədir.

...İdrak sahibi olan insan üçün həmişə ədalətli cəmiyyət problemi olub; o həmişə azad yaşamağa can atıb; tarixin müəyyən dönəmlərində bu arzuya çatan millətlər və xalqlar da tanıyırıq. Lakin azadlıq bütöv olmadıqda, o, azadlıq deyil. Rusların belə bir müdrik kəlamı var: Çörəyin yarısı da çörəkdir, həqiqət isə bütöv olmalıdır. Azərbaycan tarixinin Heydər Əliyev dövrü azadlıq amalı, yüksək tərəqqi uğrunda mübarizədir. Bu gün o mübarizənin bəhrələrini görürük – müstəqilliyimiz, tərəqqimiz, azadlığımız, ərazi bütövlüyümüz təmin olunub.

Müstəqilliyimizdən, azadlığımızdan danışarkən bir el deyimi yada düşür: Vətən o deməkdir ki, uğuru da gözümüzü yaşardır, uğursuzluğu da... Və bu müdrik kəlam məni bir qədər geriyə boylanmağa məcbur edir.

1969-cu ildən 1983-cü ilə qədər həyatımızın bütün sahələrində gedən astronomik inkişaf köhnə SSRİ-nin heç bir müttəfiq respublikasında bizim respublikamız qədər deyildi. Bunu gözü götürməyən digər respublikaları, bəlkə də, haradasa başa düşmək olar. Bəs sapı özümüzdən olan baltaları necə? Onların gözügötürməzlikləri nə ilə bağlı idi? Bu günləri istəmirdikmi? O günlərdə qazanılmış tarixi qələbələri sadalamaq fikrindən uzağam. Çünki bu, yaxın tariximizin yaddaşına əbədi həkk olan və heç vaxt pozulmayan tarixdir. Bu tarixi səhifələmək üçün yaşanmış həmin tarix qədər vaxt lazımdır.

### *Tarix hər şeyi öz yerinə qoyur...*

...1983-cü ildə Heydər Əliyevin yüksək vəzifəyə irəli çəkilməsi bəzi siyasət adamları tərəfindən birmənalı qarşılanmadı. Mənə – sıravi bir jurnalistin düşüncəsinə görə burada bir neçə məqam gizlənmişdi: İmperiya başçıları Ona ehtiyac duyduqlarını bəyan edəndə bunu alqışlarla qarşıladıq – doğrudan da, O bu vəzifəyə, hələ ondan da böyük vəzifəyə layiq idi; ikinci məqamın arxasında isə çox böyük və çirkin bir məqsəd dayanmışdı: Dahi şəxsiyyət Heydər Əliyevi Azərbaycandan ayırmaqla tarixən parçalanmaqda olan, Ulu Öndərin respublikaya rəhbərliyi dövrü qarşısı alınan bir çirkin oyunun davamına nail olmaq. 1969-cu ilə kimi nə qədər torpaqlarımız mənfur siyasətə qurban getdi və onun gəlişi ilə torpaqlarımızın “pay-puşu” dayandırıldı. Bu isə Moskvada oturan başbilənlərə və onların Ermənistandakı əlaltılarına xeyir vermirdi axı! Bütün bunlar reallıqdır. O da reallıqdır ki, bu böyük millətpərvər şəxsiyyətin nəzəri Moskvada yaşayanda da, orada işləyəndə də daim xalqımızın üzərində olub. Lakin daxildə sapı özümüzdən olan baltalar nə isə etməyə çalışsalar da, məhz dahi şəxsiyyət kəskin və sərt şəkildə milli mentalitetdən uzaq olan yerli başçıları öz yerlərində oturtmağı bacarırdı.

...Təpələr üzərində ucalmış “zirvələr” özlərini və xalqı dərk etməkdən uzaq olurlar. Bu onların bəlasıdır, böyük və dəhşətli cılızlıqdır və ona görə də belələri həmişə nifrətlə damğalanan məhvə məhkumdurlar. Tarix dəfələrlə sübut edib bunu – başsız başçılarımızın üzdəniraq siyasətinin sonu həm özləri, həm də xalq üçün nə ilə nəticələndi?! Yenidən Azərbaycanda hakimiyyətə qayıdan dahi rəhbər hər şeyi sıfırdan başlamalı oldu və sübut etdi ki, O kimdir!

### *“Şəxsiyyətin xarakteri onun yaradıcılığının bünövrəsidir”*

Təbii ki, bu müdrik deyimi həm mənfi, həm də müsbət mənada qəbul etmək olar. Əgər şəxsiyyət öz dediyini əməli ilə sübut edirsə, bu onun daxili dünyasının tələbatından irəli gəlir. Və bu tələbat böyük ideallara xidmət edirsə, onda bu ideal uğrunda mübarizə xalq tərəfindən müdafiə edilir, təqdir olunur. Görkəmli dövlət xadimi Heydər Əliyevi bütün fəaliyyəti boyu xalqımız məhz bu cür gördü. Ayrı cür ola da bilməz. Böyüklük, dahiliklə yoğrulmuş xarakter, şəxsiyyət həmişə böyük işlər görməklə formalaşıb. Bu böyüklük, dahilik hər şeydən uca olan Azərbaycançılıq missiyasından yaranmışdı. Vətən adlı bir sevgidir Azərbaycançılıq – müəllifi isə dahi Heydər Əliyev. Bu dahi şəxsiyyət, bütövlükdə, Azərbaycançılıqdır.

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Milli mədəniyyətimizin hamisi




*Bu il xalqımız Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyini böyük fərəh və minnətdarlıq hissilə qeyd edir. Bu da təsadüfi deyil. Çünki dahi insanın Azərbaycan xalqının tarixi taleyində müstəsna rol oynaması, həyat və fəaliyyətinin çoxcəhətliliyi bizim öyrənməli olduğumuz çox müsbət keyfiyyətlərin mövcudluğu ilə əlaqədardır.*

Dahi rəhbərimiz mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. Elə ona görə də mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün mümkün olan hər şeyi edirdi. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, dahi şəxsiyyət Heydər Əliyev qayğısından bəhrələnməsin. Musiqimiz də, teatrımız da, kino sənətimiz də, heykəltəraşlıq və rəssamlığımız da, xalça sənətimiz də bugünkü inkişafında Ulu Öndərin çox dəyərli ideyalarından bəhrələnib. Ümummilli Liderimiz Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoydu. Dahi şəxsiyyət mədəniyyətimizi yaradan, onu inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirir, onların daim qayğısını çəkirdi.

Azərbaycanın müqtədir sənətkarları sovet dövründə məhz Ulu Öndərin qayğısı nəticəsində “Sosialist Əməyi Qəhrəmanı” kimi SSRİ-nin yüksək fəxri adını almışlar. Görkəmli dövlət xadimi bəstəkarların, kinematoqrafçıların, teatr xadimlərinin, rəssamların qurultaylarında, konfranslarında iştirak edir, dərin məzmunlu nitqi iştirakçıların alqışları ilə qarşılanırdı. Onun hər çıxışı mədəniyyətin bir sahəsinin gələcək inkişaf proqramına çevrilirdi. Hansı sahədən danışırdısa, məlum olurdu ki, bu sahənin mütəxəssisi, bilicisidir. Dahi şəxsiyyət özü də incəsənət meylli idi. Elə gəncliyində də incəsənətə gəlmək, memar olmaq istəyirdi. Amma zaman Ulu Öndəri siyasət memarına çevirdi. Çünki bu xalqın belə bir siyasət xadiminə çox böyük ehtiyacı var idi.

Azərbaycan müstəqillik qazandıqdan sonra bir müddət mədəniyyətimiz böyük çətinliklər qarşısında qalmışdı. Lakin dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı sanki Azərbaycan mədəniyyətinin də tərəqqisinə yeni təkan verdi. Sosial problemlər ucbatından xarici ölkələrə üz tutan sənət adamları Vətənə döndülər, onlara xüsusi qayğı göstərilməyə başlandı. Bağlanmış teatrlar, kitabxanalar, muzeylər qapılarını yenidən insanların üzünə açdı. Azərbaycanda beynəlxalq səviyyəli kinofestivallar keçirilir, filmlərimiz beynəlxalq festivallarda nümayiş etdirilməyə başlayırdı. Teatrlarımız öz fəaliyyətlərini genişləndirdi. Ümummilli Lider teatrı çox sevirdi. O, həmişə tamaşadan sonra yaradıcı kollektivlə görüşür, onlara öz tövsiyə və tapşırıqlarını verirdi. Ulu Öndər deyirdi: ***“Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur”.***

Görkəmli dövlət xadimi Heydər Əliyevin milli mədəniyyətə qoruyucu, yaradıcı münasibətinin, bu sahəyə tükənməz qayğı və diqqətinin əsas mənbəyi tükənməz Vətən sevgisi, hüdudsuz xalq məhəbbəti idi. Aparılan müdrik siyasət nəticəsində milli mədəniyyətimiz beynəlxalq miqyasda tanındı, dünyanın diqqət mərkəzinə çıxarıldı. Ədəbiyyatın, mədəniyyətin təbliği üçün həyata keçirilən möhtəşəm tədbirlər, yazıçı və şairlərin, mədəniyyət xadimlərinin yubileyləri ədəbiyyatın və mədəniyyətin bayramı səviyyəsinə qaldırıldı. Bütün bunlar xalq adına, milli mədəniyyət adına olan hüdudsuz sevginin göstəriciləri olmaqla yanaşı, həm də milli mədəniyyətə yeni təfəkkürlə yanaşmanın müasir, analoqu olmayan modelləri idi. Bu yubileylər, yığıncaqlar təkcə xalqın öz sənət xadimlərinə olan sevgisinin parlaq ifadəsi üçün deyildi, bu, qüdrətli xalqın zaman-zaman yaratdığı mədəniyyət xəzinəsinin dünyanın hər yerində tanıdılması üçün idi.

Mədəniyyət, ədəbiyyat korifeylərinin əzəmətli heykəllərinin, abidələrinin ucaldılması dahi rəhbərin milli mədəniyyətimizə sonsuz sevgisinin, doğma xalqa ehtiram və məhəbbətinin ifadəsidir. Bu gün ədəbiyyat, sənət xadimləri bütün bunlardan hədsiz ehtiramla, minnətdarlıq duyğusu ilə söz açır, qürurla deyirlər ki, Ulu Öndər Heydər Əliyev sənət adamlarının, yazıçı və şairlərin ən böyük dostu, hamisidir. Ümummilli Lider zəngin mədəni irsimizin qorunmasını vacib hesab edərək deyirdi: ***“Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dününənə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”.*** Mədəniyyətimizə bu mövqedən yanaşan Ulu Öndərin sayəsində Azərbaycan ədəbiyyatı, musiqisi, rəngkarlığı, xalq sənətkarlığı, kino və teatr sənəti dünya şöhrəti qazanmışdır.

Dahi şəxsiyyət Heydər Əliyevin humanitar siyasəti, mədəniyyətimizin inkişafı ilə bağlı ideyaları bu gün Prezident cənab İlham Əliyev tərəfindən davamlı olaraq həyata keçirilir. Bu siyasət bu gün muxtar respublikamızda da müasir dövrün reallıqları nəzərə alınmaqla uğurla davam və inkişaf etdirilir. Ötən müddət ərzində digər sahələrlə yanaşı, mədəniyyətin inkişafına da hərtərəfli qayğı göstərilib. Belə qayğının ifadəsidir ki, quruculuq tədbirlərinin böyük bir qismini mədəniyyət obyektləri əhatə edib. Bu dövrdə muxtar respublikamızın mədəni həyatında yeniliklər baş vermiş, uğurlu layihələr həyata keçirilmiş, kitabxanalar, musiqi məktəbləri, mədəniyyət evləri və mərkəzlər, kino və konsert salonları tikilib istifadəyə verilmiş və ya əsaslı təmir olunmuşdur. Bütün bunlar isə xalqımızın zəngin mədəni irsini qoruyub saxlamaq məqsədi daşıyır.

*Ulu Öndər Heydər Əliyevin bir amalı var idi: **“Qazanılan gəlir birinci növbədə mədəniyyətə sərf olunmalıdır. Çünki mədəniyyət hər şeydən üstündür”.** Azərbaycan mədəniyyətinə göstərilən bu qayğı və diqqət heç vaxt yaddan çıxan deyil. Belə bir fikir var ki, millət şəxsiyyəti yetişdirir, şəxsiyyət də öz millətini dünyaya tanıdır. Müasir Azərbaycanın memarı olan Heydər Əliyev Ümummilli Lider və millət qəhrəmanı kimi tarixin şərəfli taxtına ucaldı. Ulu Öndərin milli mədəniyyətə, mənəviyyata göstərdiyi münasibət və mövqe hər birimiz üçün böyük məktəbdir.*

**Sevinc BABAYEVA**
**Naxçıvan Dövlət Universitetinin müəllimi, Azərbaycan və beynəlxalq müsabiqələrin Qran-pri və Prezident mükafatçısı**

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib

*Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi muxtar respublikamızda silsilə tədbirlərlə qeyd olunmaqdadır. Bu münasibətilə keçirilən tədbirlərdə Ulu Öndərimizin Naxçıvan şəhərinin mərkəzindəki abidəsi ehtiramla yad edilir, önünə gül dəstələri qoyulur. Tədbir iştirakçıları dahi şəxsiyyətin şərəfli ömür yolunu və siyasi irsini yaşadan Heydər Əliyev Muzeyini ziyarət edirlər. Keçirilən tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilir, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilir.*



Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və partiyanın Naxçıvan Şəhər Təşkilatı tərəfindən təşkil olunan "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasında milli siyasi sistemin formalaşması" mövzusunda konfransı giriş sözü ilə YAP Naxçıvan Muxtar Respublika Təşkilatı sədrinin müavini, aparatın rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov açıb. Bildirib ki, Ümummilli Liderimizin yaratdığı irs müasir Azərbaycan dövlətçiliyinin sütunlarını təşkil etməkdədir. Müasir Azərbaycan dövlətinin konstitusion əsaslarını, demokratiyanı, seçki və məhkəmə institutlarının möhkəmləndirilməsi, dayanıqlı iqtisadi inkişaf konsepsiyasının hazırlanıb həyata keçirilməsi, xarici siyasət strategiyası, ordu quruculuğu prosesi, bir sözlə, bütün sahələr Heydər Əliyev düşüncə tərzinin məhsulu kimi bu gün də dövlətçiliyimizin əsasında durmaqdadır. Ulu Öndərimizin Azərbaycançılıq ideyası dövlətimizin ideoloji dayaqları arasında xüsusi yer tutur. Məhz bütün bunlara görə müstəqil Azərbaycan Heydər Əliyev zəkasının məhsulu və onun şah əsəridir.

Konfransda "Ulu Öndər Heydər Əliyev və Azərbaycanda dövlət quruculuğu" mövzusunda çıxış edən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Hacıfəxrəddin Səfərli Ümummilli Liderin Azərbaycana hər iki rəhbərliyi dövründə milli dövlətçiliyin əsaslarının yaradılması istiqamətində geniş fəaliyyət göstərdiyini qeyd edib.

Bildirilib ki, Heydər Əliyev siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir.

"Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda milli siyasi sistemin formalaşması" mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikas Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli qeyd edib ki, Azərbaycanda milli siyasi sistemin formalaşmasının başlanğıcı 1990-1993-cü illərdə Ulu Öndərimiz tərəfindən Naxçıvanda qoyulub. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev partiyanın yaradılmasını ölkəmizdə siyasi sistemin yaradılması kimi qiymətləndirir. Məhz Ümummilli Liderimiz Azərbaycanda konstruktiv müxalif siyasi mövqe nümunəsini göstərib.

Konfrans müxtəlif mövzulu məruzələrlə davam edib, Ulu Öndər Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin Naxçıvan dövrünə həsr olunmuş "Sözümüz imzamızdır" filminin nümayişi ilə sona çatıb.

* * *



AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyevin həyatı və fəaliyyəti xalqa və vətənə xidmət nümunəsidir" mövzusunda elmi konfrans keçirilib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev konfransda giriş sözü söyləyib. Akademik bildirib ki, "Heydər Əliyev İli"ndə Azərbaycanda, eləcə də ölkə hüdudlarından kənarda Ulu Öndərin həyatına və siyasi fəaliyyətinə həsr olunmuş silsilə tədbirlər keçirilir.

Qeyd olunub ki, dahi rəhbər Heydər Əliyev dünya səviyyəli siyasət və dövlət adamıdır. Onun fəaliyyətinin təkcə ölkəmizlə məhdudlaşmadığını vurğulayan akademik tanınmış siyasi xadimlərin Ulu Öndər haqqında fikirlərindən sitatlar gətirib. Çıxış zamanı dahi şəxsiyyət Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafına verdiyi töhfələrdən, uzaqgörən işlərdən söz açıb. Vurğulayıb ki, üzərinə götürdüyü xilaskarlıq missiyasının ağırlığına, məsuliyyətinə baxmayaraq, ürəyi Vətən, xalq sevgisi ilə döyünən dahi lider bu missiyanı uğurla yerinə yetirmişdir.

Konfrans müxtəlif mövzulu məruzələrlə davam etdirilib.

* * *

*Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə dahi şəxsiyyətin şərəfli ömür yoluna həsr olunan videoçarx nümayiş olunub.*



Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açaraq bildirib ki, xalqımız Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini böyük ehtiramla qeyd edir. Ulu Öndərin əziz xatirəsi, Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri hər zaman xatırlanır. Bu, Heydər Əliyev şəxsiyyətinə, onun tarixi xidmətlərinə verilən qiymətin təzahürüdür, digər tərəfdən isə xalqın milli dövlətçiliyə ehtiramının ifadəsidir.

Qeyd olunub ki, bu gün Azərbaycan Heydər Əliyev ideyaları əsasında uğurla və qürurla inkişaf edir. Ulu Öndərin müəyyənləşdirdiyi siyasət, dəyərlər Azərbaycan xalqına xidmət edir.

Vurğulanıb ki, Ulu Öndərin əsasını qoyduğu ideyalar bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Azərbaycan tarixində ən parlaq qələbənin və gələcək nəsillərin qürurla xatırlayacağı günlərin canlı şahidləri olması ilə hər bir müasirimiz fəxr edir. Bu Tarixi Qələbə xalqımızı daha da bütövləşdirdi, mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi.

Tədbir çıxışlarla, bədii hissə ilə davam etdirilib.

* * *



Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Daxili Qoşunların Naxçıvanda yerləşən hərbi birləşməsinin kollektivi Heydər Əliyev Muzeyini ziyarət edib.

Eksponatlarla tanış olan hərbi qulluqçulara dahi rəhbərin həyatı və fəaliyyəti barədə müfəssəl məlumat verilib. Qeyd olunub ki, Ulu Öndər Silahlı Qüvvələrimizin, o cümlədən Daxili Qoşunların formalaşdırılması əsas prioritetlərdən hesab edir və bu sahəyə xüsusi diqqət ayırırdı. Bununla da, Azərbaycan Respublikasının Daxili Qoşunları layiqli inkişaf yolu keçib, əsaslı maddi texniki bazaya malik hərbi birləşmə kimi formalaşıbdır. Kollektiv eksponatlarla yaxından maraqlanıb, muzeydən zəngin təəssüratla ayrılıb.

* * *



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təşkil edilən konfransda nazir Mayis Əliyev çıxış edərək bildirib ki, ölkəmizdə ətraf mühitin mühafizəsi məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən 1969-1982-ci illərdə ekologiya, ətraf mühitin mühafizəsi, təbii sərvətlərin səmərəli istifadə sahəsində 8 qanun, 32 qərar qəbul olunub, xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi genişləndirilib, yeni parklar, yaşıllıqlar, meşəliklər salınıb, bu sahədə fənlərin tədrisinə diqqət artırılıb.

Qeyd olunub ki, Ümummilli Liderin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycanda ətraf mühitin mühafizəsi, bioloji müxtəlifliyin qorunması və təbii sərvətlərdən xalqın rifahı naminə səmərəli istifadə edilməsinə dair bir sıra qanun və qərarlar qəbul olunub, qanunvericilik bazası təkmilləşdirilib, ölkəmiz bir sıra beynəlxalq konvensiyalara qoşulub.

Vurğulanıb ki, Ulu Öndər tərəfindən əsası qoyulan, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ekoloji siyasətin icrası məqsədilə respublikamızda Avropa qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm qanunlar qəbul olunub, bu istiqamətdə işlər uğurla həyata keçirilir.

Konfrans çıxışlarla davam etdirilib, "Heydər Əliyev və Azərbaycan ekologiyası" adlı film nümayiş olunub.

* * *



Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə açan Naxçıvan Baş Gömrük İdarəsinin rəisi Vüqar Əliyev Azərbaycan xalqının dövlətçilik ənənələrinin formalaşdırılmasında və gömrük xidmətinin inkişaf etdirilməsində Ümummilli Liderin əvəzsiz xidmətlərindən danışıb.

Tədbirdə iştirak edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən danışıblar.

Tədbir Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə başa çatıb.

* * *



"Naxçıvan" Universitetində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə təşkil edilən, Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyev və ailə siyasəti" mövzusunda keçirilən konfransı giriş sözü ilə universitetin rektoru, dosent Anar Kazımov açıb. Xatırladılıb ki, "Heydər Əliyev İli" çərçivəsində Ümummilli Liderin zəngin həyat yolunun və müstəsna fəaliyyətinin bütün mərhələlərinin dərindən öyrənilməsi, Heydər Əliyev irsinin və ideyalarının geniş ictimaiyyətə çatdırılması məqsədilə il ərzində universitetdə çoxsaylı tədbirlər davam etdiriləcək.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova qeyd edib ki, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin tariximizdə silinməz iz qoyan nəsil şəcərəsi, eləcə də özünün nümunəvi ailə tarixçəsi, onun müqəddəs ocağının davamçıları – Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ailəsi də cəmiyyətimizə, xüsusən də gənclərimizə böyük örnəkdir.

Məruzə və bədii hissə ilə davam edən konfransda iştirakçılar tələbələrin ifasında musiqi və şeir parçaları da dinləyiblər.

* * *



Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsində keçirilən tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Elmar Tağıyev açaraq bildirib ki, Ümummilli Liderimizin böyük fədakarlıqları hesabına bu gün Azərbaycanın müstəqilliyinin əbədiliyi, dönməzliyi təmin edilib. Vurğulanıb ki, Ulu Öndərin Azərbaycanın sosial-iqtisadi, siyasi, hərbi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanışı istiqamətində gördüyü böyük işlər olmasaydı, biz bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışa bilməzdik. Qeyd olunub ki, Ulu Öndərin bütün sahələrdə müəyyənləşdirdiyi siyasət dövlət başçısının rəhbərliyi ilə uğurla inkişaf etdirilir, dövlətimiz gündən-günə iqtisadi, siyasi və hərbi cəhətdən daha da möhkəmlənir. Dahi rəhbərin əsasını qoyduğu ordu quruculuğu işlərinin layiqincə davam etdirilməsi nəticəsində ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirdi, doğma torpaqlarımızın erməni işğalından azad edilməsinə nail oldu.

Tədbir Əbədiyaşar Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarxın nümayişi ilə başa çatıb.

* * *

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə xidmət əməkdaşları üçün Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan seminar keçirilib.*



Xidmət rəisinin müavini Elnur Məmmədov tədbirin əhəmiyyəti barədə ətraflı məlumat verərək bildirib ki, müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı Heydər Əliyev siyasi hakimiyyətinin bütün dövrlərində ölkəmizin milli tərəqqisi naminə qətiyyətlə mübarizə aparmış, müstəqil dövlətçiliyimizin konseptual əsasları hazırlanılmaqla sosial-iqtisadi inkişafa nail olmuş, eyni zamanda Azərbaycan xalqının müstəqil dövlətçilik ideyalarını formalaşdırmışdır. Bu xüsusda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında 2022-ci il 29 sentyabr tarixli Sərəncamı dahi şəxsiyyətə, Onun xalqımız qarşısındakı tarixi xidmətlərinə yeni dəyərlər əsasında verilən layiqli qiymətdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının məsləhətçisi David Həsənov və AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov müxtəlif mövzularda çıxış ediblər.

Tədbir qarşılıqlı diskussiya şəraitində davam etdirilib, əməkdaşları maraqlandıran suallar ətraflı cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Tariximizin Şuşa səhifəsi

## və ya Naxçıvandan Şuşaya




***Bu iki bölgə coğrafi cəhətdən bir-birindən uzaq olsa da, taleləri bir-birinə çox bağlıdır. Bir anlıq keçmişə qayıdaq və tarixin keşməkeşli yollarından necə keçib Şuşaya, Qarabağa yol aldığımızı xatırlayaq:***

– Həmin illər idi, 1990-cı illərin çətin günləri... Sovetlər birliyi son nəfəsini verir, gücü çatdığı qədər müqavimət göstərir, əsarət zəncirini daha da bərk sıxmaq üçün müstəqilliyə can atan azərbaycanlıların üstünə zirehli texnikalar, ağır silahlarla hücum edir, azadlıq sədalarını, xalqımızın dəyanətli oğlu olan, həmin vaxt sovet rəhbərləri arasında yer alan Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırıb ev dustağı etməklə haqq səsini boğmağa çalışırdı. Bütün bunlardan cəsarətlənən ermənilər isə sərhədlərimizə hücum edir, torpaqlarımızı işğal etməklə insanlarımıza amansız divan tuturdu. Azərbaycanın digər bölgələrindən fərqli olaraq Naxçıvanda vəziyyət tamam başqa idi. Erməni silahlılarının hücumlarına əliyalın sinə gərən oğullarımız düşmənə bir qarış belə torpaq vermirdi. Həmin vaxtlarda Moskvadan Bakıya qayıdıb, mərkəzi hakimiyyətin soyuq münasibəti ilə qarşılaşan Ulu Öndər öz yurduna – Naxçıvana gəlmişdi. Naxçıvanlıların dahi rəhbəri qurbanlar kəsərək qarşıladıqları həmin günlərdə mərkəzi hakimiyyətin gözü Ümummilli Lideri götürmədi. Çünki onlar Vətəni yox, öz mənafelərini düşünürdülər. Yurdumuza qayıdan dahi rəhbərin gəlişi ilə sanki Günəş doğuldu Vətənimizin başı üzərində. Bu həmin Günəş idi ki, onun şəfəqləri illər sonra da hər tərəfi nura qərq edəcəkdi. Bəli, Naxçıvanda buranın mərd insanları ilə bərabər, soyuq, şaxtalı günlərdə, işıqsız, qazsız yaşayan əbədiyaşar liderin həmin illərdə burada çıraq işığında imzaladığı sərəncam və fərmanlar, xarici dövlətlərlə qurduğu diplomatik əlaqələr qədim Naxçıvanı işğaldan, yox olmaq təhlükəsindən qorudu. Yeni-yeni uğurlara imza atıldı. Gələcəyin partiyası Yeni Azərbaycanın təməli atıldı, üçrəngli bayraq buradan pərvazlanıb bütöv Azərbaycana qanad açdı.

### *Dahi rəhbər bu diyarda ölüm-dirim mübarizəsi aparan insanlarla birlikdə düşmənə sinə gərəndə Azərbaycanın digər bölgələrində nə baş verirdi?!*

Xocalı soyqırımı, ardınca cənnət Şuşa və Laçın düşmənə peşkəş edildi. Bacarıqsız rəhbərlər düşmən hücumunun qarşısını almaq əvəzinə qeyri-qanuni silahlı birləşmələrlə üz-üzə gəlir, qardaş qırğınına yol açırdı. Bütün bunlar isə Birinci Qarabağ müharibəsində məğlubiyyətə gətirib çıxarır, bunu labüd edirdi. Çünki tarixboyu və heç bir antimilli hakimiyyət müharibədə qələbə qazana bilməyib və Azərbaycanda da belə oldu. Xalq isə mətanətini itirməməyə çalışır, yenicə əldə olunmuş müstəqilliyi və torpaqlarımızı qorumağa səy göstərirdi. Naxçıvanda baş verənləri yaxından izləyənlər, xalqın düşünən beyinləri bu çətin və xaos vəziyyətdən çıxış yolunu, nicatı Ulu Öndərin hakimiyyətə qayıdışında görürdü. Elə məhz buna görə də insanlar Ulu Öndərin hakimiyyətə gəlməsini tələb edirdilər. Qəzet və televiziya vasitəsilə Ona müraciətlər edir, Naxçıvana gəlir, ondan imdad diləyirdilər. Hətta Qarabağda döyüşlərdə əsir düşənlərin valideynləri Naxçıvana üz tutur, dahi rəhbərdən onlara kömək etməsini istəyirdilər. Xalqın səsinə, çağırışlarına, Vətənin düşdüyü vəziyyətə biganə qala bilməyən dahi rəhbər həyatını təhlükəyə ataraq Bakıya qayıtdı. Bir neçə ay sonra xalqın təkidli tələbi, səs çoxluğu ilə ölkə Prezidenti seçildi. Həmin gündən döyüşlər səngiməyə başladı, Naxçıvandan Şuşaya – Qarabağa uzanan yolun təməli atıldı.

### *Ona özüm qədər inanıram...*

Hakimiyyətə vəzifə üçün yox, xalqa xidmət etmək üçün gəldiyini dəfələrlə dilə gətirən dahi rəhbər bunu sübuta yetirdi. Və ömrünün son günlərində ***“Mən ona özüm qədər inanıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək”***, – deyərək tamamlaya bilmədiyi arzularının gələcək taleyini gələcəyin Müzəffər Ali Baş Komandanına həvalə etdi. İllərdir, xəyalı ilə yaşadığımız həmin gün gəldi – tariximizin şanlı səhifələri igid Azərbaycan əsgərinin qəhrəmanlığı, şücaəti, qanı ilə yenidən yazıldı 44 günlük Zəfər yolunda yorulmadan yürüyən Azərbaycan əsgəri illərdir, qanayan yaraya məlhəm oldu. İşğalda 30 ildir, yol gözləyən torpaqları azad etdi. ***“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir”***, – deyən Ulu Öndər Heydər Əliyevin və bütün azərbaycanlıların arzusu çin oldu. Şuşa şəhəri tarixdə bənzəri rast gəlinməyən qəhrəmanlıqla azad olundu.

Azad Şuşa Mədəniyyət Paytaxtı elan olundu və bir çox mədəni tədbirlərə ev sahibliyi etdi. Artıq üç ildir ki, Novruz bayramı ərəfəsində bu qədim şəhərdə illər sonra bayram tonqalı qalanır. O yanan tonqallar illərdir, Şuşasız üşüyən qəlbləri isidir. “Xarıbülbül” musiqi festivalı, Vaqif Poeziya Günləri şanlı Qələbənin rəmzi, qələbə və qalibiyyət bayramı olur. Şuşa həm də Azərbaycan ilə Türkiyənin 100 illik tarixi birliyinin ifadəsinə çevrilən və tarixə “Şuşa Bəyannaməsi” kimi düşən mühüm bir strateji sənədin imzalandığı məkan kimi yaddaşlarda qaldı. Azərbaycan üçün çox önəmli bir tarixdə – Milli Qurtuluş Günündə, Qars müqaviləsindən yüz il sonra imzalanan Bəyannamə həm də böyük rəmzi məna daşıyırdı. Bu məna həm də sarsılmaz birliyimizi ifadə edirdi. 1921-ci ildə imzalanan Qars müqaviləsi ilə Naxçıvanın təhlükəsizliyinin qarantı olan qardaş Türkiyə dövləti 100 il sonra Şuşa Bəyannaməsi ilə Qarabağın təhlükəsizliyinin də qarantına çevrildi.

### *Azərbaycan xalqı bir olub torpaqlarını azad etdiyi kimi, onu gülüstana çevirməyi də bacarır*

Şuşanın hərtərəfli inkişafının bünövrəsi hələ illər öncə Ulu Öndər tərəfindən qoyulmuşdu. Dahi rəhbər 1982-ci ildə Şuşada iki dəfə səfərdə olub Vaqif Poeziya Günlərində, Vaqif məqbərəsinin və Poeziya evinin açılışında iştirak etmişdir. Sonrakı illərdə də Şuşanın inkişafına və dirçəlişinə diqqət göstərən Ulu Öndərin sovet hakimiyyətindən uzaqlaşdırılması bu qədim şəhərlə bərabər, bir çox yurd yerlərimizin erməni təcavüzünə məruz qalmasına səbəb oldu. İllərlə öz xalqı ilə bərabər Qarabağ yanğısını ürəyində daşıyan ***“Biz Şuşaya mütləq qayıdacağıq”***, – deyən əvəzolunmaz Liderin ən böyük arzusu və vəsiyyəti elə məhz Şuşanın, Qarabağın düşməndən xilası olub.Vətən müharibəsindəki qalibiyyət Ulu Öndərin arzusunu çin etdi, Ali Baş Komandan cənab İlham Əliyev ata vəsiyyətini yerinə yetirən oğul olmağın şərəfini, qürurunu yaşadı.

Üç ildir, Azərbaycan ikinci missiyanı – yenidənqurma və bərpa missiyasını həyata keçirir. Şuşanın bərpa olunmasına xüsusi diqqət edilir. Dövlət başçısı hər gəlişini bir yenilik, bir quruculuq ərməğan etdi bu gözəl şəhərə. Vandal ermənilərin uçurub, dağıdıb tövləyə çevirdiyi məscidlərə dini ehtiram nümayiş etdirməklə daxil olub, dünyadakı özünü İslam dövləti adlandırıb, amma müqəddəs ocaqlara edilən hücumlara, hətta dində murdar sayılan heyvanların saxlanılmasına göz yuman bəzi rəhbərlərə dərs verdi. Şuşa şəhərinin baş planı əsasında böyük işlər görülür. Şəhərin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Azərbaycanın Mədəniyyət Paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur. Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən qədim şəhərdə yerləşən tarixi və mədəni abidələrimiz yenidən bərpa olunur. 30 illik işğal dövründə erməniləşdirilməyə çalışılan abidələr öz milliliyinə qaytarılır. Bu Ulu Öndərin tamamlaya bilmədiyi işlərinin davamıdır. Onun arzularındakı Şuşa gözəlləşir, düşmənə gözdağı olur. Ötən iki ildə yolunu 10 dəfədən çox bu qədim şəhərdən salan ölkə başçısının Şuşaya elə bir səfəri olmayıb ki, həmin gün hansısa tarixi abidənin açılışı və ya təməlqoyma mərasimi olmasın. 2022-ci ildə “Şuşa ili”ndə dəfələrlə Şuşaya müxtəlif günlərdə səfər edən dövlət başçısı bu qədim incinin abadlaşması üçün bir çox işlər gördü, tapşırıqlar verdi. Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü ərəfəsində və Zəfərin ikinci ildönümündə Şuşaya səfər edən dövlət başçısı hərbçilərlə görüşündə demişdir: ***“Hər dəfə Şuşada olarkən – mən son iki il ərzində Şuşada on dəfədən çox olmuşam, – hər dəfə Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən mən və əminəm ki, hər bir insan bir daha hərbçilərimizin qəhrəmanlığını, fədakarlığını, peşəkarlığını görür. İllər keçdikcə hərbçilərimizin qəhrəmanlığı hər kəs üçün daha bariz şəkildə aydın olacaq”.***

Qonaqlı-qaralı Şuşa şəhəri Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayına ev sahibliyi edərək dünya azərbaycanlılarını bir araya toplamağın da qürurunu yaşadı. Ölkə başçısı öz çıxışında deyib: ***“Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz – Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V Qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir”***.

Sonrakı aylarda da bir çox mədəni tədbirlərə ev sahibliyi edən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa 2022-ci il martın 31-də Türkiyə Respublikasının Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edildi. Memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün Türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir. TÜRKSOY-a üzv ölkələrin UNESCO Milli Komissiyalarının 9-cu Toplantısında bu il mayın 12-də “Şuşa – Türk dünyasının Mədəniyyət Paytaxtı-2023”ün açılış mərasimi keçirilməsi xəbərinin verilməsi hər kəsin sevincinə səbəb oldu. İnanırıq ki, Şuşada keçiriləcək tədbirlər türk dövlətləri arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafının növbəti uğuru olacaqdır. Bu cənnət səhər Türk dünyasının Mədəniyyət Paytaxtı adını qürurla daşıyacaq, bütün dünya türklərini bir araya toplamağın sevincini yaşayacaqdır.

*Ötən il – “Şuşa ili”nin əvvəlindən bu günə kimi yüzlərlə, bəlkə də, minlərlə məqalə, şeir, poema qələmə alındı bu cənnət şəhər haqqında. Amma heç kim doymadı bu şəhəri vəsf etməkdən. Qələmin mürəkkəbi tükəndi, amma qəlbimizdəki Şuşa sevgisi, sözlər tükənmədi. Kimi tarixindən, kimisi qəhrəman oğullarından, kimisi isə gözəlliyindən, kimləri isə onun necə fədakarlıqla azad edilməsindən yazdı. İllər keçəcək, amma igid oğullarımızın dastana dönən qəhrəmanlığına həsr olunan hekayələr, əfsanələr bitməyəcək. Hələ çox yazılacaq Şuşanın azad oluşundan, ruhu ağ göyərçinə dönüb Şuşa səmasında qanad çalan igidlərin şücaətindən. Uzun yollardan keçib Naxçıvandan Şuşaya gəlişimizdən, Azərbaycanın bu cənnət şəhərindən mədəniyyətimizin, tariximizin, zəfərimizin simvolundan. Ulu Öndərin abidəsinin Şuşada ucaldığı gün isə tarixin ən gözəl günü kimi yazılacaq Şuşanın taleyinə.*

**Ramiyyə ƏKBƏROVA**

# Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar poeziya günlərinə start verilib

Naxçıvan Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən tədbirlər sırasında Poeziya günləri də yer alıb. Poeziya günləri çərçivəsində professor, Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, şair Vüqar Əhmədlə görüş keçirilib.



Görüşdə çıxış edən ali təhsil müəssisəsinin rektoru, dosent Elbrus İsayev “Heydər Əliyev İli” çərçivəsində universitetdə reallaşdırılan silsilə tədbirlər haqqında məlumat verib. Qeyd edilib ki, Ümummilli Liderimiz respublikamızda elm və təhsilə böyük qayğı ilə yanaşaraq onun inkişafına töhfələr verib. Vurğulanıb ki, ali təhsilin inkişafı istiqamətində əvəzsiz xidmətlər göstərmiş Ulu Öndər müxtəlif illərdə universitetdə 4 dəfə olub. Rektor şair Vüqar Əhmədin elmi, bədii yaradıcılığının əhəmiyyətindən, dünya miqyasında xalqımızı layiqincə tanıtmasından söz açıb.

Tarix-filologiya fakültəsinin dekanı, dosent Arif Ağalarov Azərbaycan ədəbiyyatında Vüqar Əhməd yaradıcılığının rolu və əhəmiyyəti haqqında danışıb. Bildirilib ki, Vüqar Əhməd elmi, şeiri, musiqini bir arada birləşdirməyi bacaran bir şəxsiyyətdir. Vurğulanıb ki, üç istiqamətdə fəaliyyət göstərərək, böyük uğurlar qazanmaq onun çoxşaxəli yaradıcılıq fəaliyyətindən xəbər verir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-publisist Asim Yadigar Azərbaycan ədəbiyyatında öz dəstxəti ilə seçilən şairlərimizdən olan Vüqar Əhmədin Azərbaycan ədəbiyyatındakı rolundan, ictimai-ədəbi fəaliyyətindən, elmi yaradıcılığından və şeirlərinə bəstələnən musiqilərdən söz açıb. Qeyd edilib ki, çağdaş Azərbaycanın elmi-ədəbi mühitinə öz tükənməz potensialı ilə məxsusi rəng qatan Vüqar Əhməd həm də bir şəxsiyyət olaraq gənc nəslə milli-mənəvi dəyərlərin aşılanması prosesində fəallığı ilə seçilir.

Tədbirdə tələbələr şair, ədəbiyyatşünas Vüqar Əhmədin şeirlərindən bədii qiraət ediblər. Konservatoriyanın müəllim və tələbələri nəğməkar şair kimi onun sözlərinə yazılan bəstələri ifa ediblər.

Şair görüş iştirakçılarına özünün zəngin yaradıcılığından, elm sahəsində əldə etdiyi nailiyyətlərindən danışıb.

Sonda universitetin rektoru Vüqar Əhmədə 60 illik yubileyi ilə bağlı keçirilən görüşdən xatirə plaketi və universitetin rəssamı, Əməkdar mədəniyyət işçisi Elman Cəfərlinin çəkdiyi portreti təqdim edib.

Nəğməkar şair, professor Vüqar Əhməd Naxçıvan Dövlət Universitetində olmaqdan məmnunluğunu dilə gətirib, 60 illik yubileyi ərəfəsində keçirilən görüşü ömrünün ən xoşbəxt saatları kimi qələmə verib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***




2023-cü il "Heydər Əliyev İli"dir

# Müasir gənclər siyasətinin banisi

1993-cü ildə hakimiyyətə geri dönüşü ilə Azərbaycanı parçalanma və məhvolma təhlükəsindən xilas edən xalqın böyük oğlu Heydər Əliyev bu uğurlu qayıdışı gələcəyin memarı olan gənclərə ərməğan etdi.

Gənclər bu ölkənin ən qiymətli sərvəti, gücü və ümididir. Gənclik bir millətin yüksəlməsində ən mühüm faktor olmaqla yanaşı, cəmiyyətin özülüdür. Gənclərin inkişafı, təhsili və tərbiyəsi bilavasitə bütün cəmiyyətin, sağlam gələcəyi baxımından böyük önəm kəsb edir. Beynəlxalq dəyərləri mənimsəmiş, tolerant, yüksək bacarıqlı, millətinə və dəyərlərinə sadiq, adət-ənənələrinə bağlı bir gəncliyə sahib olan ölkənin gələcəyi, əlbəttə, aydınlıqdır. Həmin gəncliyin ehtiyac duyduğu dəstək və sevgini verən, Azərbaycanın gələcəyini onlara əmanət edən dahi liderin gənc nəslin formalaşması və inkişafı istiqamətindəki qiymətli görüşləri bu gün də gənclər və təhsil siyasətinin özülünü təşkil edir.

Tarixi vərəqləsək, görərik ki, ölkədə baş vermiş ictimai-siyasi proseslər gənc nəslin mənəvi-psixoloji sarsıntısına səbəb olmuşdur. Əbədi müstəqilliyin işığını gənclərdə görən Heydər Əliyevin səyləri ilə gənclərin formalaşması və inkişafında yeni mərhələnin əsası qoyuldu. Ölkəmizdə gənclər gününün təsis edilməsi, bu sahədə qanunlar, sərəncamlar və Dövlət proqramları öz nəticəsini verməyə, gənclik sağlam gələcəyə inamla addımlamağa başladı. Çox da uzun müddət keçməmiş, dövlət-gənclər siyasətinin bəhrəsi kimi Azərbaycanın taleyinin tapşırıldığı gənclik ölkəmizin adını elm, texnologiya, incəsənət, musiqi, idman və bir sıra digər sahələr üzrə birinciliyə yüksəltməyə nail olmuşdur. Xalqla bütünləşmiş, ömrü Azərbaycana həsr etmiş dahi liderin bizə miras qoyduğu yüksək dəyərlərin mahiyyəti hamımıza məlumdur. Amma daxilən, bir gənc kimi heyifsilənirəm ki, elə böyük liderin, fədakar rəhbərin dövrünə şəxsən şahidlik edib, Onu canlı görə bilməmişəm. Çünki hər birimiz çox yaxşı bilirik ki, ölkəni idarə etmək kimi ağır məsuliyyət daşıyan bir şəxs qayğıkeş ata, ailə başçısı kimi öz ailəsindən – xalqından diqqət və qayğısını əsirgəmir, xalqla bir olub dərdlərinə, sevinclərinə şərik çıxırdı. O dövrə şahidlik edən kimdən soruşsan, hökmən onun haqqında şirin bir xatirə danışar. Fərqli zaman dilimləri, fərqli yerlər və görüşlərin fərqli səbəbləri... Amma söhbətlərin bəxş etdiyi hissiyyat dəyişməyir. Danışanların üzündə təbəssüm, həmsöhbət olmağın verdiyi qürur və belə bir şəxsiyyəti itirməyin verdiyi hüzn... Bir dəfə kəndimizdəki yaşlı nənə deyirdi ki, "Vəzifədən və işdən asılı olmayaraq, hər bir rəhbər öz tabeliyində olana məsuliyyət, çalışqanlıq və daha çox uğur arzulayır. Amma Heydər Əliyev bizim kəndin gənc üzümçü qızları ilə görüşmüş, söhbət etmişdi. O, gənclərə öz qızı kimi yanaşaraq qızlara işlərində müvəffəqiyyətlə yanaşı, qadın xoşbəxtliyi, səadət dolu ömür, gözəl ailə arzu etdi. Bir anlıq düşünürsən ki, bir dövlət başçısı iş deyil, öz doğma qohumunla, qardaşınla söhbətləşib, dərdləşirsən." Mənzərə budur: xalq Ulu Öndəri sevir, Ulu Öndər də xalqa könüldən bağlıdır.

İllər uzunu aparılan gənclər siyasəti çərçivəsində minlərlə gənclə görüşlər keçirilir, Ulu Öndər gənclərin problemlərinə, gələcək hədəflərinə işıq tutmağa davam edir. Ulu Öndər dünyasını dəyişdikdən sonra da bu istiqamətdə işlər davam etdirilir. Bu gün müasir Azərbaycan gəncinin yaradıcı düşüncələri, innovativ idealları ilə beynəlxalq mühitə açılması, onların fiziki və intellektual inkişafının dəstəklənməsi, cəmiyyətdə özlərinə yer tutması Ümummilli Liderin gənclərlə bağlı ideyalarının Prezident cənab İlham Əliyev tərəfindən uğurlu davamının bariz sübutudur. Danılmaz faktdır ki, artıq gənclər, sözün əsl mənasında, dahi rəhbər Heydər Əliyevin arzuladığı səviyyədədir. Düşünən, araşdıran, öyrənən və öyrədən... Öz haqqını bilən, cəmiyyətə faydalı və yüksək bacarıqlı gənclər layiq olduğu bütün mövqeləri əldə edir. Beynəlxalq yarışlarda, konfranslarda, olimpiadalarda himnimizi səsləndirib, bayrağımızı qaldırırlar. Bu bizim üçün böyük qürur mənbəyidir. Qeyd etmək yerinə düşərdi ki, hələ bir neçə gün öncə, Naxçıvan Dövlət Universitetinin bir qrup tələbəsi öz layihəsi ilə qardaş Türkiyədə keçirilən dünyanın ən böyük "Robotex" festivalında birinci yeri tutaraq bütün Azərbaycanın qürur və sevincinə səbəb olmuşdur. Əslində, bu festivalda biz yalnız Ümummilli Liderin gənclərə yönəlmiş ümidlərinin doğruldulmasına şahid olmadıq. Sosial şəbəkələrdə cənab Prezidentimizin yayılan görüntüsü bir daha sübut etdi ki, o, yalnız dahi şəxsiyyət Heydər Əliyevin dövlətçilik siyasətini deyil, yüksək mənəvi keyfiyyətlərini də ən gözəl şəkildə öz xislətində daşıyır. Festivalda cənab İlham Əliyevin öz yerini 8-10 yaşlı balaca qıza verməsi Ulu Öndərin uşaqlarla olan sevgi və qayğısını gözlər önünə gətirdi.

Yenə də sözlərimi dahi liderin biz gənclərə ünvanlanan sözləri ilə bitirmək istəyirəm: ***"Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq".*** Əminik ki, Azərbaycanımızın gələcəyi etibar olunan əllərdə sonsuz xoşbəxtlik, rifah və səadət içində var olacaq.

**Aysel YUSİFZADƏ**

*Məqalə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən "Dahilik zirvəsi" esse müsabiqəsinə təqdim edilir.*

# İşğaldan azad olunmuş ərazilərimizdə enerji siyasətinin düzgün qurulması mühüm strateji rola malikdir

*Məlumdur ki, dünyanın tərəqqi etmiş ölkələrinin müəyyənləşdirdiyi əsas inkişaf konsepsiyasının başında enerji təhlükəsizliyi dayanır. Çünki enerji təhlükəsizliyinin günün tələbləri səviyyəsində qurulması ölkələrin müqəddəratını həll edən başlıca məsələlərdən biridir. Bu sahənin Azərbaycanın xarici siyasətində mühüm yer tutması artıq dövrümüzün əsas məsələsi kimi fəal çıxış edir.*




Məlumdur ki, 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda Ali Baş Komandan tərəfindən müəyyən edilmiş böyük layihələr icra olunmağa başladı, quruculuq rəhbərin ideyalarının həyata keçirilməsi üçün xeyli işlər görüldü. Şuşada, Zəngilanda, Cəbrayılda və digər tarixi ərazilərimizdə tikinti-quruculuq, abadlıq, yenidənqurma və bərpa işləri reallaşdırıldı. Ölkə başçısının Qarabağa edilən bütün səfərlərində vurğuladığı ən əsas mövzu isə bu regionda sabit və dayanıqlı enerji şəbəkəsinin qurulması, habelə Azərbaycanın dünya enerji təhlükəsizliyi siyasətinə qoşulması idi. Bunun səbəbi çox sadədir. Belə ki, Vətənimizin bu vaxta qədər dünya əmtəə bazarı ilə ən böyük əlaqəsi məhz yüksəkkeyfiyyətli Bakı nefti üzərindən həyata keçirilirdi. Lakin zamanın tələbinə uyğun olaraq yeni əlaqələrin və yatırımların edilməsi qarşıya qoyulmuş mühüm addım kimi diqqəti cəlb edir. Elə götürək işğaldan azad edilmiş ərazilərimizdə bu istiqamətdə görülən işləri...

Cəbrayıl rayonunda 330/110 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyasının tikintisinin sürətlə davam etməsi və dövlət başçısı tərəfindən bu istiqamətdə gələcək perspektivlərin müəyyən olunması işğaldan azad edilmiş ərazilərimizin enerji təhlükəsizliyinin nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiq edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin oktyabrın 19-da bu yarımstansiyanın tikinti işlərinin gedişi ilə tanış olması, enerji təhlükəsizliyi sahəsində görülən əhəmiyyətli işlərin bir daha diqqətə çatdırılması ölkəmizin bu sahədə gördüyü mütərəqqi işlərin əyani sübutudur. Ali Baş Komandana "Cəbrayıl" qovşaq yarımstansiyasında tikinti işləri ilə tanışlığı zamanı məlumat verilmişdi ki, yarımstansiyanın tikintisi ilə Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı elektrik enerjisi ilə təchizatını təmin etmək, həyata keçiriləcək meqalayihələrin tələbatını qarşılamaq, Cəbrayıl-Naxçıvan-Ağrı (Türkiyə) yarımstansiyaları, oradan isə Türkiyənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerji sisteminə qoşmaq mümkün olacaq. O cümlədən İranla müştərək tikilən "Xudafərin" və "Qız qalası" Su Elektrik stansiyalarında, həmçinin alternativ və bərpa olunan enerji mənbələrində və kiçik su elektrik stansiyalarında istehsal ediləcək enerjinin Azərbaycanın ümumi enerji sisteminə ötürülməsi üçün 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikilməsi olduqca mühüm hadisədir.

Enerji sahəsində Azərbaycan-Türkiyə-Avropa əlaqələrinin qurulmasının reallaşdırılması üçün müəyyən edilmiş üç mərhələdən ibarət planlaşdırma da bu məsələdə gündəmə gətirilib. Planlaşdırmanın ən əsas və aktual hesab edilən birinci mərhələsində istismar müddətini başa vuran və işğaldan azad edilən ərazilərə ən yaxın məsafədə yerləşən 330 kilovoltluq "Ağcabədi" və "İmişli" yarımstansiyalarının genişləndiriləcək tam yenidən qurulması və "Ağcabədi" yarımstansiyasından 132 kilometr, "İmişli" yarımstansiyasından isə 130 kilometr məsafədə Cəbrayıla yüksəkgərginlikli elektrik verilişi xəttinin çəkilməsi nəzərdə tutulub. Artıq "Ağcabədi" yarımstansiyasından Cəbrayıla 330 kilovoltluq xəttin çəkilməsi işlərində bir çox plan-proqramlar yerinə yetirilib. Muxtar respublikamızın tarixi-taleyinə də təsir göstərəcək ikinci mərhələdə isə Naxçıvanın ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi üçün "Cəbrayıl" qovşaq yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə muxtar respublikaya 255 kilometr uzunluğunda ikidövrəli elektrik verilişi xətti çəkiləcək və 330 kilovoltluq "Naxçıvan" yarımstansiyası tikiləcək. Üçüncü mərhələdə Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa enerji qovşağının yaradılması üçün muxtar respublikanın qardaş ölkəyə yaxın ərazisində 330 kilovoltu 400 kilovolta keçirmək üçün əlavə Avropa enerji standartlarına uyğun 400 kilovoltluq çevirici yarımstansiya inşa ediləcək və Naxçıvandan Türkiyəyə 230 kilometr uzunluğunda ikidövrəli elektrik verilişi xətti çəkiləcək. Bununla da böyük strateji əhəmiyyətə malik layihə reallaşdırılacaq.

Bir faktı da xüsusi diqqətə çatdıraq ki, Prezident cənab İlham Əliyev Xəzər dənizinin və azad edilmiş torpaqların bərpa olunan enerji potensialı ilə əlaqədar etdiyi çıxışlarda maraqlı və taleyüklü faktlar səsləndirib. Düşmən əsarətindən azad edilmiş ərazilərdə 9 min meqavatdan çox təsdiq edilmiş enerji potensialı – külək və günəş enerjisi, Xəzər dənizində isə 150 min meqavatdan çox bərpa olunan enerji istehsalı üçün potensialın olduğunu deyən ölkə başçısı Qarabağ və Şərqi Zəngəzur ərazisindəki 1000 meqavatdan artıq güc potensialı olan hidroelektrik enerjinin də dövlətimiz tərəfindən ciddi şəkildə nəzərdən keçirildiyini və enerji təhlükəsizliyimizə güc qatacağını ifadə edib. Həmçinin ölkə başçısı mövcud imkanların da səfərbər edilməsinin vacib olduğunu, açılacaq Zəngəzur dəhlizinin yalnız yüklər üçün deyil, elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola biləcəyini dəfələrlə vurğulayıb və qeyd edib ki, Zəngəzur dəhlizi Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təmin etmək, oradan xarici bazarlara, habelə Türkiyə və Avropaya çıxmaq üçün yeni bir xətt olacaq.

Şübhəsiz ki, regionda bu günə qədər həyata keçirilən və əməkdaşlığa təkan verən bir çox layihələrdə Azərbaycanın siyasi iradəsi və qətiyyəti öz sözünü deyib. Bu gün bir çox sahələrdə olduğu kimi, müstəqil enerji siyasəti də ölkəmizin beynəlxalq arenadakı mövqeyini, həmçinin regionun və regionətrafı coğrafiyanın geostrateji təhlükəsizliyini daha da gücləndirir. Eyni zamanda Azərbaycanın səmərəli enerji siyasəti yeni əməkdaşlıq platformalarını müəyyənləşdirməklə yanaşı, Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə strateji töhfələr verir. Artıq tam əminliklə deyirik ki, ölkə başçımızın qətiyyətli mövqeyi ilə yaxın gələcəkdə ölkəmiz regionun aparıcı enerji ixracatçısına çevriləcək.

**Məcid RƏŞADƏTOĞLU**

*Naxçıvan şəhərində telefon, genişzolaqlı internet və digər müasir telekommunikasiya xidmətlərininin müasir səviyyədə təşkili istiqamətində müvafiq tədbirlər həyata keçirilib.*

# 4 ay ərzində Naxçıvan şəhərində 600-ə yaxın abonent genişzolaqlı internetlə təmin olunub

2023-cü ilin ötən 4 ayı ərzində 327 abonent yeni stasionar telefon xətti ilə, 577 abonent ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) internetlə təmin olunub. GPON (Giqabyte Passive Optical Network–Qiqabit tutumlu Passiv Optik Şəbəkə) texnologiyası əsasında həyata keçirilən "Evədək optika" layihəsi çərçivəsində isə 40 abonentə fiber-optik xətlər çəkilib, zəruri avadanlıqlar quraşdırılıb, istismar müddəti ərzində fiber-optik xətlərdə yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Artan tələbat fonunda cari ilin yanvar ayında Qaraxanbəyli kəndində abonentlərin keyfiyyətli internet xidmətlərindən istifadə etmələri üçün istismarda olan Avtomat Telefon Stansiyasının internet tutumu artırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Yaz əkinləri bol məhsuldan xəbər verir



Muxtar respublikada aqrar sahənin inkişafına mühüm töhfələr verən Culfa rayonunda cari yaz-tarla işləri də mütəşəkkil şəkildə həyata keçirilir. Yazın ilk günlərindən sahələrə çıxaraq, ümumilikdə, 250 hektardan çox ərazidə şum qaldıran rayonun torpaq mülkiyyətçiləri bu günə kimi həmin sahələrin 150 hektarında yazlıq əkin aparıblar. Əkin zamanı məhsuldar toxum sortlarından istifadəyə üstünlük verilib, 80 hektar sahədə yazlıq arpa əkini həyata keçirilib, ümumilikdə, 60 hektar əkinin suvarılması təmin edilib. Bu il rayonda əkilən sahələrin 0,5 hektara yaxınını sarımsaq, 2,7 hektardan çoxunu soğan, 17 hektarını isə bostan bitkiləri təşkil edir. Hazırda sahələrdə aqrotexniki və suvarma tədbirləri aparılır, eyni zamanda payızda əkilmiş taxıl sahələrində alaq otlarına qarşı kimyəvi mübarizə tədbirləri də görülür.

Culfada heyvandarlığı inkişaf etdirmək məqsədilə həyata keçirilən tədbirlər cari ildə də davam etdirilir. Qüvvəli yem ehtiyatı yaratmaq üçün torpaq mülkiyyətçiləri 30 hektardan artıq sahədə çoxillik əkmələr də aparıblar. Rayonda əkinçilik təsərrüfatlarında bu günədək görülən işlər belə qənaət yaradır ki, cari təsərrüfat ili də torpaq mülkiyyətçiləri üçün uğurlu olacaq.

Culfa rayonunun iri yaşayış məntəqələrindən olan Yaycıda da təsərrüfat işləri günü-gündən sürətlənir, əkin sahələrində canlanma müşahidə edilir. Yaycılılar təsərrüfatda daha çox gəlirgətirən kartof, soğan və sarımsaq əkininə üstünlük verirlər. Bu il kənd sakinləri 2 hektar sahədə soğan əkiblər.

Qeyd edək ki, muxtar respublikamızda Yaycı soğanı adla deyilir. Əvvəllər bu qiymətli tərəvəz bitkisi daha çox həyətyanı sahələrdə əkilir, istehlak məqsədi daşıyırdı. Yaycının təsərrüfat adamları muxtar respublikamızda tərəvəzçiliyin inkişafı üçün yaradılan şəraitdən bəhrələnərək pay torpaqlarında da soğan əkinini genişləndiriblər.

**Xəbərlər şöbəsi**

*Yeniləşən kəndlərimiz*

# Yurdum, yuvam, ay əziz kəndimiz

## Abadlaşan, müasirləşən yaşayış məntəqələrimiz Heydər Əliyev siyasətinin bəhrələridir








*Hər bir insan üçün doğulduğu, böyüdüyü, boya-başa çatdığı ocağın, yurdun fərqli bir tarixi, səfalı ab-havası, əvəzsiz gözəlliyi, o yurdda gördüyü, şahidi olduğu hadisələrin ayrıca mənaları var… İnsan var ki, həyatda qazandığı hər şeyi gözünü ilk açdığı, özünü dərk etdiyi isti ocağın, doğma qucağın feyzinə bağlayır, insan da var ki, ilk addım atığı yerlər elə xatirə kimi hafizəsində əbədi qalır, illər bir-birini əvəzlədikcə, xatırlanmadıqca zamanla unudulur… Mən, bu mənada, bəlkə də ən xoşbəxt insanlardanam, çünki doğulduğum kəndə hər ayaq basanda illər məni öz ağuşuna alıb çox əvvəllərə – qayğısız uşaqlığımın keçdiyi günlərə aparır.*

Naxçıvançayın sahili boyunca qoyun-quzu otarmağımız, dağ-dərələrdən üzərrik, boymadərən, quşəppəyi toplamağımız, günün qürub saatında naxırı qarşılamağımız, xalqımızın zəngin milli-mənəvi dəyərlərini, eləcə də Novruz adət-ənənələrini qeyd etməyimiz, təndirdən çıxcaq isti tapının, kökənin sevincini yaşamağımız kinolent kimi keçir gözlərimin önündən. O illərdə kəndimizin vəziyyəti heç ürəkaçan olmasa da, palçıq yolların narahatlığı, gündə bir-iki dəfə şəhər-kənd arası işləyən avtobusların diskomfortluğu, Naxçıvançay üzərindən salınan yararsız körpünün verdiyi qorxu yaşayışı çətinləşdirsə də, necə deyərlər, birlik, bərabərlik, isti ailə münasibətləri, doğma qonşuluq əlaqələri, mənəvi bolluq-bərəkət bu narahatlıqları hiss etdirmirdi insanlara. İndi artıq o illərin üzərindən çox zaman keçib, kəndimizin görkəmi dəyişib. Fikrimizi daha dəqiq ifadə etsək, diyarımızın digər yaşayış məntəqələri kimi doğma kəndim də müasirliyə qovuşub. Vayxır kəndini deyirəm, Babək rayonunun sayılıb-seçilən yaşayış məskəni, öz adını eyniadlı bulaqdan götürən doğma yurd yerini…

### Azad, abad, ay qəşəng kəndimiz

Avtomobilimiz yavaş-yavaş mənzilbaşına hərəkət etdikcə çöldə hakim kəsilən yazın ilıq nəfəsi insanı düşünməyə vadar edir. Bir zamanlar bu səmtlərə haçan üz tutsaq, əlləri ruzi-bərəkət ətri verən insanların böyük şövqlə çalışdığını, günün hansı vaxtı olur-olsun, çörəklərini daşdan çıxartdıqlarını görərdik. Düzdür, elə zəhmətsevər insanlarımız indi də var, lakin müasir dövr cəmiyyəti elə modernləşdirib ki, artıq az adam tapılar evdə xalça toxusun, yun əyirsin, nehrə çalxalasın, yaxud biçənəklərdə dəryazla ot biçsin, təndir salsın, sacda çörək bişirsin. Ağlımda kənddə çatdıqda ilk haradan başlayacağımı, kiminlə həmsöhbət olacağımı var-gəl edirəm, hansı mövzuya ilk toxunacağımın plan-proqramını cızıram. Çox keçmir ki, yolun kənarındakı "Vayxır" yazılı nişan ünvana çatmağımızın xəbərini verir. Kəndin mərkəzində ucalan yaraşıqlı inzibati bina, ətrafdakı abadlıq və təmizlik kənd əhli kimi elə bizi də sevindirir. Vayxır kənd inzibati ərazi dairəsi üzrə nümayəndə ***Vüqar Quliyev***lə görüşüb həmsöhbət oluruq. Müsahibimiz kənddə yaradılan kompleks tikinti-quruculuq işləri barədə məlumat verir bizə: – Ötən günlərdə diyarımızın müasir yaşayış məntəqələri sırasına Vayxır kəndi də daxil oldu. Kənddə gedən tikinti-quruculuq, abadlaşdırma işləri fevral ayının 1-də yekunlaşdı və açılış mərasimi keçirildi.

Vüqar Quliyev deyir ki, kənd mərkəzinin və həkim ambulatoriyasının tikintisinə 2022-ci ilin mart ayında başlanılıb. 3 mərtəbədən ibarət olan binada baş həkim, qeydiyyat, manipulyasiya, peyvənd, mama, doğuş, stomatoloq, palata, əczaxana, ATS, poçt, polis üçün otaqlar, həmçinin Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə işçiləri, qəbul üçün, həmçinin inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, mədəniyyət evinin işçiləri, 44 yerlik iclas zalı, kitabxana, kitabxana işçiləri üçün otaq, arxiv, əlavə olaraq 5 iş otağı var. Bina istilik, elektrik və su sistemi ilə təchiz olunub, ətrafında geniş abadlıq işləri aparılıb, həyətə kilid daş və travertin plitələr döşənib. Həmçinin həyətyanı sahədə ağaclar, gül kolları əkilib, ətraf ərazi işıqlandırılıb və suvarma sistemi ilə təchiz olunub. O cümlədən yeni yaradılan və bir mərtəbədən ibarət olan xidmət mərkəzində ərzaq malları, təsərrüfat və sənaye malları, ət satışı mağazaları, dərzi, bərbər, qadın gözəllik salonları və 2 anbar yerləşir.

### Təhsil millətin gələcəyidir...

Dünyanın istənilən inkişaf etmiş ölkələrinin təhsil vəziyyətinə baxsaq, orada təlim-tədris prosesinə diqqətin güclü olduğunu, bu sahədə pedaqoji hazırlığın mütəşəkkil formada yerinə yetirildiyini, ümumtəhsil məktəblərinin maddi-texniki bazasının gücləndirildiyini, bir sözlə, təhsil infrastrukturunun yüksək səviyyədə qurulduğu görərik. Ötən əsrin qanlı-qadalı hadisələrindən, müharibə və çalxantılarla keçən dövrlərindən sonra ölkəmizdə təhsilin inkişaf etməsi üçün bir çox addımlar atılıb. Elmi-mədəni mühitin dünya təcrübəsinə inteqrasiyası sahəsində atılan addımlar bu gün ölkəmizdə iqtisadiyyatın, beynəlxalq əlaqələrin güclənməsinə şərait yaradıb. Nəticədə, diyarımızda şəhər-kənd fərqi olmadan nümunəvi, mütəşəkkil təhsil sistemi formalaşıb. Elə ölkə başçısının da dediyi kimi: ***"Deyə bilərəm ki, son illər ərzində təhsilin maddi-texniki bazasının böyük dərəcədə yenilənməsi artıq həll olunub, 3500-dən çox məktəb ya yenidən tikilib, ya da ki əsaslı təmir edilib. Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara cavab verir, yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb. Hesab edirəm ki, bu sahədə işlərin böyük hissəsi görülüb".***



Sevindirici haldır ki, məmləkətimizdə hər ötən gün təlim-tədris prosesinin daha da genişlənməsi, qeyd etdiyimiz kimi, kəndlərimizdə də müasir təhsil şəraitinin əsasını qoyub. Bu imkanlardan bəhrələnən Vayxır kəndində də yeni, lazımi tədris avadanlıqları ilə təchiz olunmuş məktəb binası istifadəyə verilib. Bu barədə bizə məlumatı məktəbin direktoru ***Nicat Məmmədov*** verir. Müsahibimizin sözlərinə görə, kəndin 378 şagird yerlik tam orta məktəb binasının yenidən qurulmasına 2022-ci ilin mart ayında başlanılıb. 2 mərtəbədən ibarət olan məktəb binasında 21 sinif otağı, 2 elektron lövhəli sinif, kompüter sinfi, şahmat sinfi, hərbi kabinə, STEAM kabinəsi, müəllimlər otağı, kimya, biologiya, fizika laboratoriyaları, kitabxana, idman zalı və digər otaqlar olmaqla, ümumilikdə, 45 otaq yerləşir. Təhsil prosesinin informasiya texnologiyaları əsasında təkmilləşdirilməsi və interaktiv təlim metodlarından istifadə yüksək nəticələrin qazanılmasına imkan verir. Məktəbin fizika laboratoriyasında, STEAM kabinəsində və digər 2 sinifdə olmaqla, 4 elektron lövhə quraşdırılmış, məktəbin optik rabitə sistemi ilə internet şəbəkəsinə qoşulması təmin edilmişdir.

Nicat müəllim deyir ki, bizim təhsil aldığımız illər ölkəmizin ən təlatümlü dövrünə təsadüf edirdi. Yararsız məktəb binaları, işıqsız, istiliksiz sinif otaqları, qəzalı vəziyyətdə olan idman zalları, kitabxanalar, sözün əsl mənasında, təhsilin inkişafı istiqamətində başlıca maneələrdən idi. Lakin Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bütün bu problemlər aradan qalxdı. Bu böyük siyasi yolun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizin bütün sahələri ilə bərabər, təhsil sahəsi də inkişafa qovuşub. Bu da imkan verir ki, gənclərimiz savadlı kadr kimi yetişsinlər, Vətənimizi, millətimizi yerindən, ünvanından asılı olmayaraq, hər yerdə layiqli səviyyədə təmsil etsinlər. Çünki Ümummilli Liderimizin də dediyi kimi: ***"Təhsil sahəsində əldə etdiyimiz nailiyyətlər bizim milli sərvətimizdir".***

### İnsan amilinə verilən dəyər, milli rifah və əmin-amanlıq naminə...

Vayxır kənd tam orta məktəbində uzun illərdir, pedaqoji fəaliyyət göstərmiş bir neçə müəllimlə də həmsöhbət oluruq. Məktəbin kimya müəllimi, Azərbaycan Respublikasının Əməkdar müəllimi ***Şükufə Əhmədova*** deyir ki, ölkəmizdə özünəməxsus ənənələri ilə seçilən təhsil infrastrukturu keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Artıq diyarımızda nümunəvi və dünya təcrübəsinə əsaslanan təhsil rejimi yaradılıb. Dövlət başçısının yüksək diqqəti və məqsədyönlü göstərişləri əsasında atılan addımlar, icra edilən Dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə olunmasına, yüksək nəticələrin qazanılmasına xidmət edir. Bu da ölkəmizdə milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir. Onu qeyd etməyi lazım bilirik ki, təhsil siyasəti hər bir ölkənin strateji hədəflərində birinci yerdə durur. Son günlərdə istifadəyə verilən Vayxır kənd tam orta məktəbinin binası da təhsilin inkişafına verilən töhfələrdəndir. Belə bir şəraitdə Vətənimizin işıqlı gələcəyi olan gənclərimizə yüksək təhsil vermək hər bir müəllimin vicdan və şərəf borcudur. Məktəbimizin pedoqoji kollektivi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək. Son olaraq yaradılan yüksək şəraitə görə məktəbimizin bütün müəllim kollektivi adından ölkə başçımıza dərin minnətdarlığımızı bildiririk.

### Bahar güllərindən təzə kəndimiz...

Min illərdən bəri xalqımızın geninə hopmuş milli-mənəvi dəyərlərə ehtiram yurdumuzun hər yerində, hər bir sakininin evində, ocağında yaşadılır. Vayxır kəndində həmsöhbət olduğumuz yaşlı sakinlərin dediyindən də anladıq ki, qonaqpərvərlikdən tutmuş, mehriban, səmimi qonşuluq əlaqələrinə, toy-nişan adətlərinə qədər hər şey diyarımızın bir çox yaşayış məskənlərində olduğu kimi, doğma kəndimizdə də öz tarixiliyini qoruyur. Kənd sakini 86 yaşlı ***Pəri Bağırova*** ilə söhbətimizi fərqli bir mövzuda – Naxçıvanın sevilib-seçilən adət-ənənələri ilə bağlı davam etdirdik. Müsahibimizin şirin-şəkər söhbəti qeyri-ixtiyari məni uşaqlıq illərinə qaytardı, nənəmizin illər əvvəl hər bir kəsin evində mövcud olan adət-ənənələrdən danışdığı əhvalatlar mənə də çox şeyi xatırlatdı. Pəri nənə deyir ki, zaman irəlilədikcə, illər bir-birini əvəz etdikcə bir çox adət-ənənələrimiz də tarixin bir küncündə, necə deyərlər, gələcək nəsillərə miras qalır. Əvvəllər həyət-bacalarımızda olan və bolluq-bərəkət rəmzi sayılan təndir, burada bişirilən isti lavaşın, yağlı kökənin, tapının xoş qoxusu, sac çörəyinin ətri, ya da adı dillərdə deyilən, ocaqda bişirilən Naxçıvan qovurmasının dadı bir çox yerlərimizdə unudulub. Bu adətlərimiz elə dəyərlər idi ki, bir həyətdə əgər bir həftə təndir yanmadığı hiss olunsa, o saat qohum-qonşu evin insanlarının maddi cəhətdən darda olduğunu hiss edərdi, kimin gücü nəyə çatırdısa əl tutar, köməklik göstərərdi. Ana-nənələrimiz həmişə deyərdi ki, təndir başında edilən xeyir-dua heç vaxt bihudə getməz, çünki təndir zəhmət və ruzi-bərəkət rəmzidir. Bu səbəbdən də əvvəllər bir evdə əgər xeyir iş olurdusa, mütləq ailələrin şadlığı, firavanlığı üçün təndirdə lavaş bişirilərdi. İlk olaraq qız evində toy lavaşı açılıb, şirin aş-qaralı plov dəmlənib oğlan evinə aparılardı, növbəti dəfə isə oğlan evi toy çörəyi bişirib, xonça bəzəyib qız evinə "mübarək olsuna" gələrdi. İndi bir çox rayonlarımızda, kəndlərimizdə qayğıkeş insanlarımız, ana-bacılarımız tərəfindən həmin adətlər qorunub yaşadılır. Özünəməxsus ab-havası, əsl Azərbaycan adətlərini özündə yaşadan Vayxır kəndi və onun zəhmətsevər insanları kimi...

Xalqımızın, Vətənimizin ən çətin dövrlərin sınağına çəkildiyi bir vaxtda – 1937-ci il repressiyasının hər kəsi öz cənginə alıb güllələnməyə, yaxud da Sibirin lal çöllərində ölümə tərk etdiyi bir vaxtda dünyaya gələn Pəri nənə uşaqlıq çağlarını o illərdə doğulan digər həmvətənlilərimiz kimi yaşaya bilmir. Aclıq, qıtlıq və kasıblığın verdiyi çətinlik 1941-1945-ci illərin İkinci Dünya müharibəsi ilə özünün ən dəhşətli və dözülməz həddinə çatır. Atasını, dayısını, əmisini, bir sözlə, ailəsindən bir neçə başıpapaqlı kişilərini, ailə başçılarını hər kəs kimi o da müharibəyə göndərir. Onların böyük bir qismindən isə geriyə bir parça qara kağız gəlir, o illərdə müharibədə itkin düşmüş, yaxud da ölüm xəbərini verən, neçə-neçə ailənin səadətini məhv edən qara kağızlara deyirəm... Min bir çətinliklə keçən o illəri həyatın hər üzünü görmüş müsahibimiz belə xatırlayır: – Atam başda olmaqla ailəmizin bir neçə nəfərinin müharibəyə yollanması bizim kimi bir çox ailənin çırağını söndürmüşdü. Həmin illərdə mən 5-6 yaşlarında olsam da, anamızın bizi böyüdüb boya-başa çatdırmaq üçün çəkdiyi zəhməti çox yaxşı xatırlayıram. Elə günlərimiz olub ki, sübh tezdəndən axşama qədər bir tikə çörək belə tapa bilməmişik. Kolxoz dövrünün çətinliyini dadmışıq, xalqımızın başını alan hər iki böyük müharibənin dəhşətlərini görmüşük, başımız dilə gətirilə bilməyəcək bəlalar çəkib, amma yenə də səbir etmişik. Həmd olsun Allaha ki, bu gün balalarımız, nəvələrimiz biz çəkdiyimiz dəhşətli günləri görmədən xoşbəxt yaşaya bilirlər. Ən əsası təhsil alıb ali savad sahibi olmaq kimi imkanları var. Bizim vaxtımızda nəinki təhsil almaq, heç qız uşaqlarının məktəbə getməsinə belə icazə verilməzdi. Elə mənim özüm də, digər bacı-qardaşlarım da 13 yaşımdan ana-nənəmizin yanında kərdi-külə bağlayıb, bostan suvarırdıq. Şükür ki, o çətin günlərimiz artıq geridə qaldı. Azərbaycan müstəqil dövlət oldu. Torpaqlarımızı işğal etmiş ermənilər də qovduq. Hər bir Vətən oğlu kimi mənim nəvəm də 44 günlük Qarabağ savaşında canla-başla döyüşdü, müharibə iştirakçısı, qazi kimi şərəfli adın sahibi oldu, bir neçə orden və medallarla təltif edildi. Mən bundan sonra da xalqımıza, elimizə, obamıza qələbə ovqatlı xoş günlər, bayramlar arzu edirəm.



### Layiqsən şeirə, sözə kəndimiz

Günün qürub saatı yetişəndə kənddə həyat tamam başqa olur. Yazda dağların ardından boylanan Günəşin al şəfəqləri, yayda naxırın örüşdən səs-küylə qayıtmağı, payızda iydənin qəlbə şəfqət verən qoxusu, saralmış yarpaqların, çəmənlərin xoş ətri, qışda da ətrafa hakim kəsilmiş soyuğun sükutu insanda fərqli düşüncələr yaradır. Bu yerlərdə insanlar günə fəsildən asılı olmayaraq, dan yeri sökülən vaxtdan başlayar, məğrib azanına qədər həyat öz axarında davam edər. Elə ki mal-qara kəndə qayıtdı, həyət-bacalarda kəndin axşam qayğıları başlayar, toyuq-cücə yemlənər, qoyun-quzu sağılar, bir sözlə, zəhmət, cəfakeşlik hər bir evdə, ocaqda insanların həyat amalına çevrilər. Buna görə də taleyini kəndə bağlamış hər bir insanın həyatını müqəddəs hesab edirlər... Elə bizim də doğma kənddən qayıtmaq vaxtımız çatıb artıq, şahid olduğumuz böyük qonaqpərvərlikdən, səmimi münasibətlərdən, şirin-şəkər söhbətlərdən sonra şəhərə qayıdırıq. Avtomobilimizin pəncərəsindən çölə boylanarkən bu dəfə tamam başqa hisslərin eyforiyasına qapılmışam, ən azından kənddə gələrkən fikirləşdiyim sualların çoxuna cavab tapmışam, əlləri ruzi-bərəkət ətri verən yaxşı insanlar tanımışam.

✍ **Məcid RƏŞADƏTOĞLU**

*Keçmiş SSRİ dövründə respublikamızın kənd təsərrüfatı sahəsində əhəmiyyətli yerə malik olmuş aqrar sahələrdən biri tütünçülük idi. O dövrlər Azərbaycan tütün istehsalına görə Moldova və Ukraynadan sonra 3-cü yeri tuturdu. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu aqrar siyasət nəticəsində Azərbaycanda tütünçülük çox sürətlə inkişaf etdirilmiş, bu sahənin böyük sənaye potensialı yaradılmışdır.*

## Tütünçülük Naxçıvanın ənənəvi təsərrüfat sahələrindəndir

### *Bu il muxtar respublikada 51 hektar sahədə tütün əkini planlaşdırılıb*



1986-cı ildə respublikamızda 16,7 min hektar sahədən rekord miqdarda – 65 min ton tütün istehsal olunmuşdur. Həmin dövrdə Azərbaycanın 21 rayonunda tütünçülük inkişaf etdirilirdi. Lakin ötən əsrin sonlarında kənd təsərrüfatının müxtəlif sahələri kimi tütünçülük də tənəzzül dövrünü yaşamış, nəticədə, tütün istehsalı xeyli aşağı düşmüş, idxalın payı artmışdır.

2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə keçirilən respublika müşavirəsində dövlət başçısı ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, xüsusilə ixracyönümlü sahələrin, o cümlədən Azərbaycanda kənd təsərrüfatının böyük potensiala malik, strateji əhəmiyyətli, iqtisadi cəhətdən səmərəli, ənənəvi və əməktutumlu istehsal sahələrindən olan tütünçülüyün dirçəldilməsini bir daha prioritet vəzifələrdən biri kimi vurğulamış, bu sahənin inkişafı ilə əlaqədar zəruri tədbirlərin həyata keçirilməsi barədə aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar vermişdir. Xüsusilə ölkə başçısının 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş və icrası artıq uğurla başa çatmış “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı” ötən dövrdə bu sahənin inkişaf etdirilməsinə hərtərəfli şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikası da sovetlər birliyi dövründə tütünçülüyün inkişaf etdirildiyi ənənəvi regionlardan olub. Mütəxəssislərə görə, muxtar respublika ölkəmizdə keyfiyyətli tütün istehsalına malik bölgələrdən biri kimi qiymətləndirilir. Ölkə başçısının tütünçülüyün inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıqlar ötən dövrdə Naxçıvanda da bu sahənin inkişaf etdirilməsinə imkan verib. Bu məqsədlə 2017-ci ildə “Cahan Tabak” Beynəlxalq Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Kəngərli rayonunun Təzəkənd və Xıncab kəndlərində tütün əkini aparılıb, əsasən, “Virciniya” və “Oriental” tütün sortlarından istifadə olunub. Məhz həmin il ərazidə yeni Tütün Yetişdirmə Təsərrüfatı qurularaq burada istixanalar, yeraltı su anbarı, tütün qurutma yeri və anbarlar yaradılıb. Qısa müddətdə təcrübə məqsədilə əkilmiş tütün sortlarından növbəti illərdə muxtar respublikanın digər bölgələrində istifadə olunub.

Tütün Yetişdirmə Təsərrüfatının nümayəndəsi ***Nurəddin Qəhrəmanov*** bizimlə söhbətində bildirdi ki, artıq bir neçə ildir, buradakı istixanada yetişdirilən tütün şitillərinin Kəngərli, Şərur, Babək rayonlarında əkini həyata keçirilir. Təsərrüfatın fəaliyyəti əhalinin məşğulluğuna da öz təsirini göstərir. Belə ki, hər il buradakı mövsümi işlərə Təzəkənd və Xıncab kəndlərindən 30-40 sakin cəlb olunur. Eyni zamanda adıçəkilən rayonlarda tütün əkini ilə məşğul olan torpaq mülkiyyətçiləri da bu işlə gəlirlərini təmin edirlər.

Öyrəndik ki, bu il Şərurda 10, Babəkdə 6, Naxçıvan şəhərində 4, Kəngərli rayonunda isə 31 hektar olmaqla, ümumilikdə, 51 hektar sahədə tütün əkini nəzərdə tutulub.

*Bəli, tütüncülüyün inkişafı son illərdə diqqət mərkəzində saxlanılan sahələrdəndir. Çünki bu ənənəvi sahənin inkişaf etdirilməsi daxili bazarın idxaldan asılılığını qurtarmaq, xaricə axan valyutanın qarşısını almaq, eyni zamanda ölkəmizə valyuta qazandırmaq baxımından böyük əhəmiyyət daşıyır. Şübhə etmirik ki, tezliklə muxtar respublika iqtisadiyyatında tütün sektorunun çəkisi ciddi ölçüdə artacaq, bu sahənin inkişafı yeni iş yerlərinin yaranması ilə yanaşı, ixraca da öz töhfəsini verəcəkdir.*

✍ **Səbuhi HƏSƏNOV**

*Ailə təsərrüfatlarımız*

## Kartofçuluğun inkişafı ərzaq təhlükəsizliyinə mühüm töhfədir



*Muxtar respublikada kartofçuluğun inkişaf etdirilməsi sahəsində görülən işlər nəticəsində bu mühüm ərzaq məhsulunun əkilib-becərilməsinə maraq ildən-ilə artır. Son illərdə kənd təsərrüfatının inkişafı üçün dövlət tərəfindən verilən dəstəkdən bəhrələnən ailə təsərrüfatçıları da bu sahədə uğurlu nəticələr qazanırlar. Şərur rayonunda da kartofçuluqla məşğul olan çoxlu sayda təsərrüfatçı var. Belə ailə təsərrüfatçılarından biri Düdəngə kənd sakini, ixtisasca aqronom olan* ***Faiq Ağayev****dir.*

Ailə təsərrüfatçısı hər il əkin sahələrindən bol məhsul götürür, onun yarısını toxum kimi, yarısını da istehlak üçün bazara çıxarır. O, keçən il əkdiyi sahədən 40 ton məhsul tədarük edib. Təsərrüfatçı kartofun əkilməsindən tutmuş çıxarılmasına kimi bütün işləri həm əl əməyi, həm də texnikanın köməyi ilə həyata keçirir. Ancaq çalışırlar ki, kartof səpinində əl əməyindən daha çox istifadə olunsun. Bunun da əsas səbəbi kartof toxumunun cücərmiş halda olmasıdır. İllərdir ki, təsərrüfatla məşğul olan Faiq Ağayev bu il məhsuldarlığın çox olacağına əmindir. Çünki buna nail olmaq üçün təsərrüfatda kartof əkininə hazırlıq işləri vaxtında görülüb, əkin aparılıb, hazırda aqrotexniki qaydalar həyata keçirilir. Müsahibim deyir ki, indi rayonda elə kənd yoxdur ki, orada kartof əkilməsin. Faiq Ağayev 2 hektar yarım ərazidə “arizona” və “aleqriya” sortlarından kartof, 1 hektar soğan, 2 hektar buğda əkib, 3 hektar sahədə isə qarğıdalı əkməyi nəzərdə tutub. Onun sözlərinə görə təsərrüfatında suvarma işi süni yağış yağdırma sistemi ilə həyata keçirilir ki, bununla da 50 faiz suya qənaət edilir.

Faiq müəllim kartofun əkilmə üsulundan söz açaraq bildirdi ki, düzgün əkin kartof məhsulunun tarladan anbara qədər keyfiyyətli olmasına təsir göstərir. Uğurlu əkin, eyni zamanda bitki örtüyünü də inkişaf etdirir. Bir çox amillərə görə, ən uyğun əkin dərinliyini təyin etmək çətindir. Əkin dərinliyi torpaq səthi ilə toxum yumrularının üst hissəsi arasındakı məsafə kimi qəbul edilir. Toxumların basdırılma dərinliyi, adətən, yumruların diametrinə uyğun aparılmalı, yumşaltma və dibdoldurma zamanı basdırılmış toxumların üzərinə əlavə edilən torpaq qatı 5-7 santimetr çox olmalıdır. Təpənin hündürlüyündən asılı olaraq dərin əkilmiş yumru yalnız 10 santimetr torpaq qatı ilə, səthi əkilmiş yumru isə 15 santimetr və ya daha çox torpaq qatı ilə örtülə bilər. Dayaz əkin soyuq hava şəraiti üçün daha əlverişlidir. Dərinə əkmək mexaniki yığım zamanı qaldırıcıya böyük çətinlik yaradır. Çeşid müxtəlifliyi də əkinin dərinliyində mühüm rol oynayır. Bu da əkinçinin çeşidlərin xüsusiyyətlərini bilməsini vacib edən amillərdəndir. Kartof əllə, yarımmexaniki və tam mexanikləşdirilmiş üsulla əkilməli, cərgədə yumruların bir-birindən eyni məsafədə basdırılmasına diqqət edilməlidir. Bitki sıxlığının çoxluğu yumrunun kifayət qədər inkişaf edib böyüməsinə mane olur. Cərgələrarası məsafənin normada, yəni 70-75 santimetr aralığında olması alət və maşınlara qulluq zamanı bitkinin yaşıl hissələrinin, kök və kök yumrularının zədələnməsinin qarşısını alır və xəstə bitkilərin aşkarlanmasını və çıxarılmasını asanlaşdırır. Məsafənin daralması suvarma suyunun kök zonasına asanlıqla çatmasına və torpaq, işıq, su və qida maddələrindən faydalanma səmərəliliyini artırmasına imkan verir.

*Torpaqları bərəkətli olan Şərur rayonunda hər il bu sahədə torpaq mülkiyyətçiləri tərəfindən yüksəkkeyfiyyətli məhsul istehsal edilir. Kartofçuluqda təcrübə qazanan torpaq mülkiyyətçilərinin əməyi, zəhməti sayəsində nəinki onlar ailələri ilə yanaşı, muxtar respublika əhalisinin bu məhsula olan tələbatının ödənilməsində mühüm rol oynayırlar. Ötən hər bir ildə məhsul bolluğuna nail olan təsərrüfat adamları bu il də sahələrdən bol məhsul gözləyirlər. Faiq Ağayevin təsərrüfatında gördüklərimiz də belə qənaətə gəlməyə əsas verir.*

✍ **Aytac CƏFƏRLİ**

## Xarıbülbül bitkisi Naxçıvanda elmi-tədqiqat işlərinə cəlb ediləcək



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aidiyyəti laboratoriyasında xarıbülbül bitkisi fitosanitar analizlərə cəlb olunub. Həmin analizlərin aparılmasında laboratoriya mütəxəssisləri ilə birgə Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazirin vəzifəsini müvəqqəti icra edən Xəyalə Dadaşova da iştirak edib. Analizlər nəticəsində karantin və ya digər zərərli orqanizmlər aşkar edilməyib.

Nazirlik tərəfindən xarıbülbülün elmi-tədqiqat işləri aparılacaq, bitkinin muxtar respublikanın iqlim şəraitinə uyğunlaşıb-uyğunlaşmaması dəyərləndiriləcəkdir. Məqsəd Ulu Öndər Heydər Əliyevin 100 illiyi ərəfəsində Naxçıvan Muxtar Respublikasının florasını zənginləşdirməklə yanaşı, 44 günlük Vətən müharibəsində şəhid olan Azərbaycan övladlarının xatirəsini yaşatmaq, Azərbaycan Ordusunun Zəfər simvolunun nəsildən-nəslə ötürülməsini təmin etməkdir.



Azərbaycan Respublikasının “Qırmızı Kitabı”na daxil edilmiş nadir bitki xarıbülbül hazırda Qarabağda, xüsusilə Şuşada mövcuddur. Tarixi məlumatlara əsasən bu bitkiyə təsadüfi hallarda Azərbaycanda Samur-Dəvəçi, Kür-Araz və Xəzərsahili (Siyəzən rayonu, Beşbarmaq dağının təpə hissəsində) ovalıqlarında, Kür düzənliyində, Türkiyədə isə Anadolunun şimal-şərqində (Trabzon) rast gəlinmişdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Ordubad tam orta internat məktəbinin komandası “Sərhəd” hərbi-idman oyunlarının qalibi olub




Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin birgə Tədbirlər Planı əsasında hər il təşkil olunan “Sərhəd” hərbi-idman oyunlarının final mərhələsi Lənkəranda keçirilib.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş və ümumilikdə, üç mərhələdə keçirilmiş yarışlarda 35 sərhədyanı və digər rayonların 161 məktəbinin 805 şagirdi gücünü sınayıb, ilk iki mərhələnin yekunlarına görə 11 komanda aprel ayının 28-dən may ayının 4-dək final mərhələsində mübarizələrini davam etdiriblər.

Qeyd edək ki, “Sərhəd” hərbi-idman oyununun rayon mərhələsində muxtar respublikanın sərhədyanı tam orta məktəblərini əhatə edən 16 komanda iştirak edərək onlardan 6-sı zona mərhələsinə vəsiqə qazanmışdı. Zona mərhələsində isə Ordubad tam orta internat məktəbinin komandası qalib olub, final mərhələdə muxtar respublikanı təmsil edib.

Komandalar “Sərhəd pozucusunun yaxalanması və onun təxliyə edilməsi”, “Ləpirçilik”, “Sərhəd naryadı tərəfindən nəqliyyat vasitəsinə baxışın keçirilməsi”, “Maskalanma”, “Yaralanmış sərhəd naryadına ilkin tibbi yardımın göstərilməsi və onun təxliyə olunması”, “Avtomatın sökülməsi və yığılması”, “Tüfəngdən hədəfə atəş açmaq” və “Sıra hazırlığı” üzrə öz bilik və bacarıqlarını nümayiş etdiriblər.

Final mərhələsinin yekunlarına əsasən Ordubad tam orta internat məktəbinin “Xətailər” komandası birinci, İmişli rayonunun Qızılkənd tam orta məktəbinin “Turan” komandası ikinci, Cəlilabad rayonunun Ləkin kənd tam orta məktəbinin “Ləkin” komandası isə üçüncü yerin qalibi olub.

May ayının 4-də Dövlət Sərhəd Xidmətinin “Lənkəran” sərhəd dəstəsində “Sərhəd” hərbi-idman oyunlarının yekunlarına həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə iştirak edən Dövlət Sərhəd Xidmətinin, Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin rəsmiləri qalib komandaları təbrik edərək bu oyunların gənclərdə Vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasında, Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunmasında, sərhədçi peşəsinə marağın artırılmasında mühüm rol oynadığını vurğulayıblar.

Tədbirdə qaliblər kubok, medal, diplom və qiymətli hədiyyələrlə, oyunlarda fəal iştirak etmiş komandalar isə həvəsləndirici hədiyyələrlə mükafatlandırılıblar.

Hərbi-idman oyununun keçirildiyi günlərdə məktəblilər sərhədçilərin xidməti və məişət şəraiti ilə tanış olub, onlar üçün bir sıra maraqlı ekskursiyalar təşkil edilib, çoxsaylı mədəni-kütləvi tədbirlər, bilik və idman yarışları keçirilib.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, Əliabad qəsəbəsi 12/35-də yaşayan Mustafayev Vilayət Nəriman oğlunun adına olan MH-0033026 nömrəli Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 316